www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 iyun 2019-cu il Çərşənbə axşamı № 134 (7304) Qiymәti 60 qəpik

**Xəbər**

**Dünyada və Azərbaycanda QİÇS virusu daşıyıcıları artır - SOS!**

yazısı səh.13-də

**Gündəm**

## Prezident İlham Əliyevin General Sərəncamları Azərbaycana nə verdi - təhlil



Dövlət başçısının son sərəncamlarının daha bir fəlsəfəsi də var: o, kimsəni cəzalandırmadan böyük bir siyasi tənlik həll etdi

yazısı səh. 9 və 10-da

## Bakı daha bir beynəlxalq tədbirə ev sahibliyi edir

yazısı səh.3-də

## 24 iyun və Elçibəy taleyi...

yazısı səh.5-də

## Qarabağla bağlı növbəti təhlükəli ssenari

yazısı səh.11-də

## "Büdcə imkanlarından vətəndaşların xeyrinə istifadə edilir" - Çingiz Qənizadə

yazısı səh.5-də

## AŞ PA-nın sessiyası başladı, əfv müzakirələri bitdi

yazısı səh.2-də

## İstanbul seçkilərinin üzə çıxardığı həqiqət - xalq amili

yazısı səh.5-də

## Prezidentin irad bildirdiyi problemlər necə aradan qaldırılır - qurumlardan açıqlama

yazısı səh.6-da

## Trampın İranla bağlı "qamçı-kökə" siyasəti - bölgəmizdə böyük savaş təhlükəsi

yazısı səh.7-də

## Gömrükçüləri aldatmaq üçün plan quran ər-arvad hakim qarşısında

yazısı səh.14-də

## AVM və əyləncə mərkəzlərində təhlükəsizliyi necə qorumalı...

yazısı səh.15-də

# BAKININ İLDIRIMSÜRƏTLİ SAVAŞ PLANI: İRƏVANIN GÜRCÜSTAN YOLU TƏLAŞI

Tiflisdəki olaylar səbəbindən işğalçı ölkəni Rusiyaya bağlayan sonuncu əlaqə də kəsilir; **Ermənistanın sabiq baş naziri:** "Azərbaycan kəşfiyyatı xeyli fəallaşıb, Bakı bizi müharibəyə vadar edəcək!.."



yazısı səh.8-də

# Keçmiş nazirin Londona sığınan oğlu radikal dini təriqət üzvü olub - təhlükə

"Azərbaycan hakimiyyəti bu adamların əllərindəki pullardan, dini baxışlarından ciddi narahat olmalıdır"

yazısı səh.10-da



## İmamoğlunun İstanbul qələbəsinə Bakıdan ilginc açıqlamalar

yazısı səh.4-də



## Professor Şirməmməd Hüseynov vəfat etdi

yazısı səh.2-də



*Azay Quliyev:*

## "QHT-lər özlərinin savadsızlığını ört-basdır etmək naminə bizim işlərimizə kölgə salmasın"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019



# Prezident hərbi qulluqçulara ali hərbi rütbələr verdi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. (AzərTAc)**

Sərəncamla Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilib:

"general-leytenant" hərbi rütbəsi
general-mayor Fuad Nadir oğlu Məmmədova
general-mayor Zahid İbrahim oğlu Hüseynova
"general-mayor" hərbi rütbəsi
polkovnik Qədir Əşrəf oğlu Nəsibova
polkovnik Rasim Rza oğlu Babayevə
polkovnik Vüqar Əfqan oğlu Əliverdiyevə
polkovnik Polad İsrayıl oğlu Həşimova
polkovnik İlqar Zakir oğlu Lətifova
polkovnik Məhəmməd Kərim oğlu Həsənova.




# Avtomobillərin icbari sığorta məbləği artırıla bilər

**Avtomobil sahiblərinin mülki məsuliyyətinin icbari sığorta məbləği artırıla bilər. 8 il öncə qəbul edilən qanuna görə, bu məbləğ 5 min manat olsa da, dolların bahalaşmasından və ölkənin avtomobil parkında mənzərənin dəyişməsindən sonra bu məbləğ yetərincə hesab olunmur.**

O baxımdan da həmin məbləğin artırılmasına baxıla bilər.

Bu barədə musavat.com-a açıqlama verən İcbari Sığorta Bürosunun (İSB) icraçı direktoru Rəşad Əhmədov bildirib. O qeyd edib ki, avtonəqliyyat vasitələrinin sahiblərinin mülki məsuliyyətinin icbari sığortası ilə əlaqədar maksimum həcmi 5 min manatdır: «Ancaq bu tarif 8 il əvvəl müəyyənləşdirilib. Hazırda ölkədə bahalı xarici avtomobillər çoxalıb. 8 il əvvəl 5 min manat da xarici valyuta ifadəsində daha böyük rəqəmlə ifadə olunurdu.

Ona görə də avtomobilə dəyən ziyanla bağlı maksimum 5 min manat tarifinə yenidən baxılması üzərində iş aparırıq. Bu istiqamətdə araşdırmalar aparılır və bu ayın sonunda mütəxəssislər məsələ ilə bağlı təkliflərini ortaya qoyacaqlar".

❑ **Nərgiz LİFTİYEVA,**
**Musavat.com**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "QHT-lər özlərinin savadsızlığını ört-basdır etmək naminə bizim işlərimizə kölgə salmasın" - Azay Quliyev

**"Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilk dəfə olaraq layihələrin qiymətləndirilməsinə vətəndaşları dəvət edib".**

APA-nın məlumatına görə, bunu Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Səlis elektron vətəndaş proqramının tətbiqi"nin nəticəsinə həsr olunmuş brifinqdə şura sədri Azay Quliyev bildirib.




A.Quliyevin sözlərinə görə, ekspertlərlə yanaşı, vətəndaşların da layihələrin qiymətləndirilməsində iştirakının əsas məqsədi layihələrin ictimaiyyətə açıq olmasını, aşkarlığın ən yüksək səviyyədə təşkilini və dövlət vəsaitinin xərclənməsi prosesində onların şəffaflığını təmin etmək olub: "Vətəndaşlar bizim layihələri hansı formada maliyyələşdirdiyimizi görür və bunda iştirak edirlər. Biz layihələri onlayn təqdim etməklə qeyri-hökumət təşkilatlarının fəaliyyətini daha da stimullaşdırmış olduq".

**Sədr "Elektron vətəndaş proqramı"nın ilk dəfə tətbiq edilməsinə baxmayaraq, nəticənin sevindirici olduğunu vurğulayıb:** "Layihələrin sayı 265 idi, onlardan 11-i texniki səbəblərdən qəbul edilməyib. Vətəndaşların layihələri qiymətləndirməsinə 21 gün vaxt ayrılmışdı və 10930 vətəndaş layihələrin qiymətləndirilməsində iştirak edib. Qeydiyyatdan keçən vətəndaşlar 73 bölgəni əhatə edir. Vətəndaşlardan daxil olan rəylərin sayı isə 12491 təşkil edib. Layihənin qiymətləndirilməsində tətbiq edilmiş qayda belə idi ki, hər 3 rəy bir bal hesab edilirdi".

**A.Quliyev verilən rəylərin daha sonra filtrdən keçirildiyini qeyd edib:** "Bəzi vətəndaşlar saxta yollarla qeydiyyatdan keçməyə çalışsalar da, bu, aşkarlanıb və beləliklə, 1220 rəy silinib. Rəylərin silinməsinin birinci səbəbi o idi ki, vətəndaşlar doğru şəkildə qeydiyyatdan keçməyiblər. Bundan başqa, əsaslandırılmayan rəylər var idi. Bəzi rəylər, sadəcə, rəy xatirinə yazılıb. Daha sonra elə rəylər var idi ki, bir neçə nəfər tərəfindən dəfələrlə köçürülmüşdü. Biz bu rəyləri də nəzərə almadıq. Elə rəylər də var idi ki, QHT rəhbərləri tərəfindən öz təşkilatları barədə yazılmışdı. Biz bunları da sildik. Bəzi hallarda deputatların adlarından istifadə edib layihələrə rəy göndərirdilər. Biz təbii ki, bu rəyləri də araşdırıb saxta olduğunu dəqiqləşdirdik".

**Sədr ekspertlərdən 60 yekun keçid balı toplamış layihələrin sayının 191, vətəndaşlardan 20 və daha çox keçid balı toplamış layihələrin sayının 101, həm ekspertlərdən, həm də vətəndaşlardan keçid balı toplamış layihələrin sayının 30, 1-dən 20-dək vətəndaş balı toplamış layihələrin sayının 94, 0 vətəndaş balı toplamış layihələrin sayının isə 59 olduğunu bildirib:** "Biz maksimum çalışdıq ki, həm ekspertlərdən, həm də vətəndaşlardan bal toplamış layihələr arasında balanslaşdırmanı təmin edək".

**"QHT-lər bizi şantaj etməkdənsə, layihə yazmağı öyrənsin" - deyə, brifinqdə şura sədri Azay Quliyev bildirib:** "Layihəsi keçməyən bəzi QHT-lər şantaj işi ilə məşğuldur. İstənilən QHT-nin layihəsini mətbuatda yerləşdirməyə hazırıq. Nə şantajla, nə təhdidlə, nə hədə-qorxu gəlməklə bizdən heç vaxt nəsə qopara bilərlər. Bizi şantaj etmək əvəzinə, haqqımızda böhtan yazmaq əvəzinə düzgün layihə yazmağı öyrənsinlər. Əgər istəyirlərsə, gəlsinlər, onlara təlim keçək. Bizim fəaliyyətimiz göz qabağındadır, bütün layihələr şəffaf şəkildə həyata keçirilir. Mən onlara demək istəyirəm ki, nə istəyirlər yazsınlar, nə şantaj, nə o hədə-qorxu bizi qorxudur. Biz də onların yazdıqlarını ictimaiyyətə çıxaracağıq, qoy ictimaiyyət özü qiymət versin. Bundan sonra görüm o QHT-lərin nə üzü olacaq. Biz Cənab Prezidentin verdiyi tapşırıqları yerinə yetirməyə, ölkədə aparılan islahatlara, quruculuq işlərinə öz töhfəmizi verməyə qərarlıyıq. Ona görə istərdim ki, QHT-lər özlərinin savadsızlığını ört-basdır etmək naminə bizim işlərimizə kölgə salmasın".

# AŞ PA-nın sessiyası başladı, əfv müzakirələri bitdi

## Mirvari Qəhrəmanlı: "Əfv məsələsinə gələn il baxıla bilər"

**İyunun 15-də Qurtuluş Günündə də əfv sərəncamı imzalanmadı. Bu da sərəncamın nə zaman veriləbiləcəyi ilə bağlı müzakirələr yaradıb. İlin sonuna qədər sərəncamın imzalanıb-imzalanmayacağı yönündə müxtəlif mülahizələr səslənir. Əksər fikirlər Yeni ildən yanadır.**

Məlumat üçün bildirək ki, iyunun 24-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyası başlayıb. Sessiyada Azərbaycanla bağlı bir sıra məsələlərin, o cümlədən siyasi məhbusların müzakirəyə çıxarılacağı bildirilir. Gedən müzakirələrin fonunda rəsmi Bakının Avropa İttifaqı ilə yaxın aylarda imzalayacağı tərəfdaşlıq sazişi də gündəmə gəlib. Bu saziş imzalanana qədər siyasi məhbus probleminin həll ediləcəyi qeyd olunur.



Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı əfv məsələsinə gələn il baxılacağını düşünür: "2019-cu ilin sonuna qədər əfv olmayacağını düşünürəm. Ölkədə siyasi məhbusun olmadığını deyirlər, amma var. Həmin məhbuslar məhkəmələr vasitəsilə, eləcə də qəbul edilən bəzi qanunlar əsasında azadlığa buraxıla bilərlər. Hesab edirəm ki, əfv məsələsinə gələn il baxıla bilər. Çox arzu edirəm ki, mənim fikrim səhv olsun, özünü doğrultmasın. Avropa İttifaqı ilə bu il saziş bağlanacaq ki? Düşünmürəm ki, sazişdə əsas diqqət yetirilən məsələ siyasi məhbuslarla bağlı olacaq. Çünki orada bir çox məsələlər müzakirə edilir. Açığı, bu il Avropa İttifaqı ilə sazişin imzalanacağını düşünmürəm".

**Hüquq müdafiəçisi AŞ PA-nın yay sessiyasına da toxundu:** "Həmişə olduğu kimi, Azərbaycanla bağlı bəzi məsələlər müzakirə ediləcək. Siyasi məhbuslarla bağlı məsələyə baxıla bilər. Bu zaman narahatlıq ifadə ediləcək, diqqətə çatdırılacaq və bununla da məsələ bitəcək".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



# Şirməmməd Hüseynov dünyasını dəyişib

**Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, Azərbaycan jurnalistikasının görkəmli simalarından biri Şirməmməd Hüseynov dünən vəfat edib.**

Musavat.com xəbər verir ki, bu barədə millət vəkili Fazil Mustafa və Bakı Dövlət Universiteti mətbuat xidmətinin rəhbəri Pərvanə İbrahimova sosial şəbəkədəki statusunda yazıb.

Allah rəhmət eləsin!

❑ **Musavat.com**

# "Kənd təsərrüfatı sahəsinə gənclər cəlb edilməlidir" - İnam Kərimov

**"Azərbaycanda kənd təsərrüfatı gənclər üçün cəlbedici və gəlirli sahəyə çevrilməlidir".**

"Report" xəbər verir ki, bunu Bakıda BMT-nin keçirdiyi "Dövlət Xidmətləri Forumu-2019" tədbiri çərçivəsindəki "Hər kəsi əhatə edən inklüziv və bərabər xidmətlər" mövzusunda panel sessiyasında kənd təsərrüfatı naziri İnam Kərimov bildirib.

"Uzun illərdir davamlı inkişaf edən Azərbaycan bu sahədə böyük təcrübə toplayıb", - deyən nazir kənd təsərrüfatının hazırda hökumət üçün öncül sahələr sırasında olduğunu diqqətə çatdırıb.

"Yeni-yeni inkişaf üsulları, müxtəlif dəstək mexanizmləri tətbiq etməyə, hazırda vergidən azad olunmuş kənd təsərrüfatına subsidiyalar ayırmağa çalışırıq. Məqsədimiz kənd təsərrüfatını şəffaf, sadə, səmərəli hala gətirməkdir", - deyən nazir bu məqsədlərə modern texnologiyaları tətbiq etməklə çatmağın mümkün olduğunu, Kənd Təsərrüfatı Nazirliyinin ASAN Xidmətlə birgə bu istiqamətdə fəaliyyət göstərdiyini qeyd edib.

Gənclərin kənd təsərrüfatına, kənd məhsulları istehsalına maraq göstərmədiyini vurğulayan nazir kənd təsərrüfatını cəlbedici və gəlirli hala gətirmək üçün yollar tapılmasının vacibliyini vurğulayıb.

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019



# Bakı daha bir beynəlxalq tədbirə ev sahibliyi edir

## Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatı Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim edildi

**İyunun 24-də Bakıda, Heydər Əliyev Mərkəzində Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu işə başlayıb.**

"Yeni Müsavat" xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva forumun açılış mərasimində iştirak edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın forumda çıxışından sonra BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin çıxış etdi.

Liu Cenmin ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatını Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim etdi.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, İndoneziya Respublikasının Qunadarma Universitetinin rektoru və Özəl Universitetlər Assosiasiyasının vitse-prezidenti, professor xanım Eko Sri Margianti çıxış etdilər.

**Çıxışı zamanı Ülvi Mehdiyev bildirdi ki, belə mötəbər tədbirin Bakıda keçirilməsi çox əhəmiyyətlidir:**

"Çünki Bakı Şərqi Avropada dövlət xidmətləri forumunun keçirildiyi ilk şəhər kimi tarixə düşdü. "Forumu Azərbaycan üçün əhəmiyyətli edən hadisələr olacaq. Bunlardan biri Beynəlxalq ASAN Assosiasiyasının təsis olunmasıdır. Bu, bütün ölkələrin dövlət xidmətlərinin birləşdiyi bir təşkilat olacaq. Qurumun adı da ASAN olacaq. Bu isə o deməkdir ki, ASAN Xidmət təkcə Azərbaycanın intellektual brendi deyil, həm də beynəlxalq bir təşkilatın adına çevriləcək. Bu addımın məqsədi ASAN Xidmət modelinin digər dövlətlərdə tətbiqi ilə bağlı mübadilə aparmaqdır".

**O deyib ki, Azərbaycan dövləti BMT tərəfindən xüsusi mükafata layiq görüldü. Mükafatın əsas təyinati odur ki, Azərbaycan ASAN Xidmət modeli ilə dövlət xidmətləri sahəsində ciddi bir islahata imza atdı.**

"Artıq ASAN Xidmətin ikinci mərhələsi bu ildən fəaliyyətə başlayıb. Söhbət Mygov elektron hökumət konseptindən gedir. Bu konsept vasitəsilə reaktiv xidmətlərdən preaktiv xidmətlərə keçid edəcəyik. Hansı ki bu konsept BMT ekspertləri tərəfindən qiymətləndirilib".

Daha sonra BMT Dövlət Xidmətlərinin Mükafatlandırılması mərasimi keçirilib.

Mükafatların təqdimetmə mərasimində BMT-nin Baş katibinin İqtisadi və Sosial Məsələlər üzrə müavini Liu Zenmin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya Regionu üzrə direktoru Alia El Yassir iştirak ediblər. 5 fərqli kateqoriya üzrə mükafatların builki qalibləri Keniya, Braziliya, Avstraliya, İndoneziya, Argentina, Portuqaliya, Tayland, Kosta Rika, Koreya Respublikası, Avstriya, Çili olub.













**Ardınca paralel seminarlara start verilib. Seminarlarda çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycanda kənd təsərrüfatı gənclər üçün cəlbedici və gəlirli sahəyə çevrilməlidir:**

**"Uzun illərdir davamlı inkişaf edən Azərbaycan bu sahədə böyük təcrübə toplayıb", - deyən nazir kənd təsərrüfatının hazırda hökumət üçün öncül sahələr sırasında olduğunu diqqətə çatdırıb.**

"Yeni-yeni inkişaf üsullarını, müxtəlif dəstək mexanizmləri tətbiq etməyə, hazırda vergidən azad olunmuş kənd təsərrüfatına subsidiyalar ayırmağa çalışırıq. Məqsədimiz kənd təsərrüfatını şəffaf, sadə, səmərəli hala gətirməkdir", - deyən nazir bu məqsədlərə modern texnologiyaları tətbiq etməklə çatmağın mümkün olduğunu, Kənd Təsərrüfatı Nazirliyinin ASAN Xidmətlə birgə bu istiqamətdə fəaliyyət göstərdiyini qeyd edib.

Gənclərin kənd təsərrüfatına, kənd məhsulları istehsalına maraq göstərmədiyini vurğulayan nazir İ.Kərimov "kənd təsərrüfatını cəlbedici və gəlirli hala gətirmək üçün yollar tapmalıyıq" şəklində fikir bildirib.

**Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Orxan İsayev çıxışı zamanı söyləyib ki, Azərbaycan korrupsiyaya qarşı mübarizənin labüdlüyünü dərk edir. O bildirib ki, Azərbaycanda korrupsiyanın qarşısının alınması üçün müvafiq mexanizmlər var:** "Bu mexanizmlərdən istifadə etməklə korrupsiya ilə mübarizə aparılır. Təbii ki, korrupsiya sərhəd tanımır və beynəlxalq aləmə də öz mənfi təsirini göstərir".

**Çıxış edən rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirdi ki, BMT-nin Dövlət Xidmətləri Forumunun Bakıda keçirilməsi çox əhəmiyyətlidir:**



"İnformasiya texnologiyalarının yeni trendləri dövlət xidmətlərinin rəqəmsal transformasiyasında böyük rol oynayır. Son illər bulud texnologiyası dövlət xidmətlərinin sürətləndirilməsində, şəffaflıqda mühüm rol oynayır. Bulud texnologiyası inkişaf məqsədlərinə nail olmaq üçün yaxşı bir həlldir. Azərbaycanda "Hökumət buludu" yeni yaradılmağa başlanıb, Prezident İlham Əliyev bununla bağlı iyunun 3-də müvafiq fərman imzalayıb. Bu, rəqəmsal hökumətə keçidin təmin edilməsi, büdcə xərclərinə qənaət edilməsi üçün zəruri sayılıb. Bulud mərkəzi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "DATA mərkəzi"ndə yaradılır, nazirliyimiz "Hökumət buludu"nun operatoru təyin edilib. Keçid Planı hazırlanacaq, hökumət strukturlarının mərhələli şəkildə "Hökumət buludu"na keçidi təmin olunacaq". **R. Quluzadə qeyd edib ki, 2018-ci ildə Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyinin tərkibində İnnovasiyalar Agentliyi yaradılıb:** "Ölkəmizdə klasterlərin formalaşdırılması üçün İnnovasiyalar Agentliyi ilə özəl sektorun əməkdaşlığı vacibdir. Agentlik innovativ layihələri, startapları dəstəkləyir və maliyyələşdirir. Süni intellektə əsaslanan həlləri dəstəkləmək İnnovasiyalar Agentliyinin əsas vəzifələri sırasında yer alıb".

"Yeni Müsavat" bildirir ki, forum 2003-cü ildən etibarən 23 iyun - BMT-nin Dövlət Xidmətləri Günü ərəfəsində hər il təşkil olunur. Forumun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsidir. Həmçinin forum çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər mükafatlandırılacaq.

Dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin iştirak etdiyi builki foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılıblar.

Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunan ilk BMT tədbiri olan bu forum çərçivəsində plenar sessiyalar, 9 fərqli aktual mövzu üzrə seminar və 4 paralel tədbir təşkil ediləcək. Eyni zamanda 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qaliblərinin təltif olunması, Dövlət Agentliyi ilə xarici ölkələrin bir sıra qurumları arasında əməkdaşlığa dair müqavilələrin imzalanması planlaşdırılır.

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində dövlət xidmətlərinin göstərilməsi üzrə ASAN Beynəlxalq Assosiasiyasının yaradılmasına dair Niyyət Bəyannaməsi imzalanıb.

"Report"un xəbərinə görə, ASAN Beynəlxalq Assosiasiyasının yaradılmasının təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir.

Sənədi Mərakeş, Azərbaycan, Monteneqro, İndoneziya, Əfqanıstan, Türkiyə, Uqanda və Birləşmiş Ərəb Əmirliyinin nümayəndələri imzalayıblar.

ASAN Beynəlxalq Assosiasiyasının yaradılması ilə tərəfdaşlar arasında dövlət xidmətlərinin göstərilməsi sahəsi üzrə unikal əməkdaşlığın qurulması, müvafiq sahədə səmərəli idarəetmə üzrə müasir çağırışları və vacib problemləri müzakirə etmək üçün ekspertlərin, mütəxəssislərin institusional şəbəkələşməsinin yaradılması nəzərdə tutulur.

Assosiasiyanın yaradılmasına dair Niyyət Bəyannaməsi çərçivəsində, həmçinin müvafiq sahə üzrə ən qabaqcıl təcrübələrin və ekspertizaların davamlı mübadiləsi üçün institusional platforma təsis olunacaq, dövlət xidmətlərinin göstərilməsində innovasiyaların tətbiqinin təşviqi həyata keçiriləcək.

Niyyət Bəyannaməsinin imzalanmasında iştirak edən tərəfdaş dövlətlərin nümayəndələri Dövlət Agentliyinə ASAN Beynəlxalq Assosiasiyasının Təsis Görüşünü təşkil etdiyinə görə minnətdarlıqlarını çatdırıb, bu təşəbbüsün müstəsna əhəmiyyətini vurğulayıblar.

Forumun Azərbaycan Respublikasında keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, ASAN Xidmətin uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülməsidir.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar: Elçin ƏKBƏROV**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019



# İmamoğlunun İstanbul qələbəsinə Bakıdan ilginc açıqlamalar

## Bu seçki müxalifətdə ruh yüksəkliyi yaradacaq və onu gücləndirəcək, AKP-də isə əksinə...

**İstanbul Böyükşəhər Bələdiyyə Başqanı seçkilərində 45 faiz səs toplamış Binəli Yıldırıma qarşı 54 faiz səslə CHP namizədi Əkrəm İmamoğlu qalib gəldi. Nəticələr açıqlandıqdan sonra Yıldırım qalibi təbrik edib.**

Ə.İmamoğlu təşəkkürlərlə dolu çıxışında Türkiyə prezidenti Ərdoğana da müraciət edib. Bildirib ki, 16 milyon əhalisi olan İstanbulun hazırkı vəziyyəti ilə əlaqədar Rəcəb Tayyib Ərdoğanla birgə çalışmağa hazırdır: “Mövzumuz 16 milyon insanın ehtiyacı və İstanbuldur. Mən İstanbul üçün sizinlə birgə işləməyə hazıram. Mandatımı alıb, işə başlamaq arzusundayam. Və yol xəritəmizi hazırlamaq üçün sizə müraciət edirəm. Vətəndaşlarımız siyasi mübahisələrdən, münaqişələrdən bezib. Xidmət, istehsal və çarə yolunu gözləyir”.

Prezident də seçkinin ilkin nəticələri bəlli olandan sonra twitterdə Türkiyədə xalqın iradəsinin, demokratiyanın bir daha təcəlli etdiyini yazaraq qələbəsi münasibətilə İmamoğlunu təbrik edib.

HDP-nin həmsədri Pərvin Buldan bildirib ki, seçkilərdə CHP-nin namizədini dəstəkləmələri nəticəyə həlledici təsir edib. Pərvin Buldan twitterdə yaydığı mesajında “Bu günün qalibi HDP olmuşdur. Nöqtə.” yazıb.

Bəs İstanbul seçkilərinin nəticəsi Türkiyənin gələcəyinə hansı təsirlərini göstərəcək? Seçkinin bu cür nəticələnəcəyi gözlənilən idimi? İmamoğlunu parlaq qələbəyə hansı faktorlar apardı? Onun qələbədən sonra kürdlərə, ermənilərə də təşəkkür etdiyi məlumdur. Kürdlərin və ermənilərin İstanbulda mövqeləri güclənəcəkmi?

**Politoloq Şahin Cəfərli “Yeni Müsavat”a bildirdi ki, İstanbul seçkilərinin nəticələri Türkiyədə siyasi proseslərin bundan sonrakı gedişatına ciddi təsir göstərəcək. Əgər 31 martda prezident Ərdoğan nəticələrlə barışsaydı və yerli özünüidarəetmə səviyyəsindəki rəqabətin fövqündə dayanıb, hər kəsin prezidenti kimi davransaydı, müxalifətin qələbəsinin efekti bu dərəcədə parlaq olmayacaqdı:** “Ərdoğanın özünün siyasi keçmişindən məlumdur ki, Türkiyə insanı hər zaman dövlətin, hakim gücün basqısına məruz qalan, əzilən siyasətçinin yanında yer alır. İnsanlar ölkədəki hüquqsuzluğa, media azadlığının, məhkəmə müstəqilliyinin məhdudlaşdırılmasına, hətta iqtisadi böhrana və yoxsulluğa müəyyən nöqtəyə qədər səbir göstərə bilər. Lakin seçmə-seçilmə hüququna kobud müdaxiləyə və bu haqqının əlindən alınmasına dözüm göstərməz. İqtidar artıq toplumun qırmızı cizgilərini keçirdi və milli iradə ona dur dedi. İmamoğlunun qələbəsində başlıca faktor budur. Təbii ki, digər amillər də rol oynadı. Məsələn, CHP və İyi Partinin qurduğu ittifaq sağlam və səmimi idi. İyi Parti İmamoğluna çox ciddi dəstək verdi və onun qələbəsi üçün ən azı CHP qədər çalışdı. Meral Akşener 23 iyun öncəsi İstanbulun bütün 39 rayonunda seçicilərlə görüşlər keçirdi, partiyanın bütün millət vəkilləri İstanbulda təbliğat-təşviqat işlərinə cəlb olundu. İyi Partinin İstanbul təşkilatı bütün gücünü qələbə üçün səfərbər etdi. Nəticədə İmamoğlu Binəli Yıldırımdan fərqli olaraq, öz ittifaqından, yəni Millət İttifaqından maksimum səs aldı. Bu, önəmlidir. Digər mühüm amil HDP-nin verdiyi dəstəkdir. HDP-nin dəstəyi İmamoğlunun şəxsinə və CHP-yə yönəlməmişdi, bu partiyanın məqsədi "faşist ittifaqı" kimi dəyərləndirdiyi Cümhur İttifaqının məğlub olması və zəifləməsinə nail olmaq idi. Bu məsələdə Millət İttifaqı ilə HDP-nin maraqları üst-üstə düşdü. Mən hesab edirəm ki, bir partiya kimi HDP-nin maraqlarından, planlarından, niyyətindən asılı olmayaraq, kürdlərin əksəriyyətinin müxalifət namizədini dəstəkləməsi Türkiyə demokratiyasını xilas etdi. Bu dəstək çox qiymətlidir və kürd faktorunun Türkiyə siyasətinə təsiri bundan sonra daha da artacaq".

**Ekspertin fikrincə, müxalifətin uğurunun digər səbəbi şübhəsiz ki, ölkədə iqtisadi böhranın dərinləşməsi, inflyasiyanın yüksəlməsi, bahalıq və işsizliyin artmasıdır. Bu amil ola bilər ki, həlledici rol oynamayıb, amma iqtisadi böhran iqtidarın uğur hekayəsini xeyli zədələdi və mühafizəkarların bir qismini ondan küsdürərək uzaqlaşdırdı:** “Nəhayət, seçki kampaniyanın son günlərində iqtidarın ”Öcalan açılımı"nın əks-effekt verməsi də namizədlər arasındakı səs fərqinin böyüməsinə yol açdı. PKK liderinin kürdləri tərəfsizliyə çağıran məktubunun dövlətin rəsmi xəbər agentliyi tərəfindən yayılması, daha sonra isə Abdulla Öcalanın qardaşı, dövlət tərəfindən axtarılan Osman Öcalanın TRT-yə çıxaraq CHP və İmamoğlu əleyhinə danışdırılması rəzalət idi. Bu hadisə türk milliyətçilərinin qəzəbinə səbəb oldu. Nəticələr göstərir ki, xeyli miqdarda MHP seçicisi seçkiyə getməyib, gedənlər isə İmamoğluna səs verib".

**Bundan sonra Türkiyədə siyasi proseslərin gedişinə gəldikdə isə Ş.Cəfərlinin sözlərinə görə, 23 iyunun əsas siyasi nəticəsi budur ki, prezident Ərdoğanın məğlubedilməz lider obrazı aradan qalxdı:** “Mayın 6-da seçkilərin nəticələri ləğv olunduqdan sonra istər Türkiyədə, istərsə də Azərbaycanda əksəriyyət belə düşünürdü ki, Ərdoğan seçkini ləğv etdirirsə, deməli, bir bildiyi var və nəyin bahasına olursa-olsun, təkrar seçkidə qalib gələcək. Amma belə olmadı. İmamoğlunun 806.000 səs fərqi ilə qalib gəlməsi Ərdoğanın siyasi karyerasının ən ağır məğlubiyyətidir. Bu seçki müxalifətdə ruh yüksəkliyi yaradacaq və onu gücləndirəcək, AKP-də isə əksinə, daxili mübahisələrə, mərkəzdənqaçma meyllərinə səbəb olacaq. Qarşıdakı həftələrdə biz yəqin ki, istər Davudoğlu, istərsə də Babacanın qərargahında partiya qurmaq işlərinin sürətləndiyini müşahidə edəcəyik. Prezident Ərdoğan bu prosesi dayandıra bilərmi? Zəif ehtimal da olsa, mümkündür ki, Ərdoğan narazılarla danışıqlara gedib, onları yenidən partiyada və hökumətdə yüksək postlara gətirsin və AKP-nin monolitliyini qorusun. Lakin bu halda o, özünün qeyri-məhdud hakimiyyətinin məhdudlaşdırılması ilə razılaşmalı olacaq, çünki Davudoğlu və Babacan vəzifə naminə vəzifəni qəbul etməyəcəklər və şərtlər irəli sürəcəklər. Davudoğlu öz mövqeyini ötən ay açıqladığı manifestdə ortaya qoyub. O, Türkiyədə demokratik islahatların aparılmasını, media azadlığının, məhkəmə müstəqilliyinin təmin olunmasını, prezident üsul-idarəsinin nə dərəcədə məqsədəuyğun olmasının təkrar ictimai müzakirəyə çıxarılmasını istəyir. Gül və Babacan da paralel mövqedədir. Ərdoğanın bu şərtləri qəbul etməsi hazırkı idarəçilikdən vaz keçməsi anlamına gələr. O, çox mürəkkəb situasiya ilə qarşı-qarşıyadır. Bunu şahmatdakı suqsvanq vəziyyətinə bənzətmək olar, yəni istənilən gediş sənin vəziyyətini daha da pisləşdirir. Mən düşünürəm ki, prezident üsul-idarəsi özünü doğrultmadı və Türkiyənin yenidən parlamentar demokratiyaya qayıdışı bundan sonra ciddi şəkildə müzakirə olunacaq. Qarşıdakı dövrdə erkən seçkilərin də gündəmə gəlməsi istisna deyil”.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər isə bildirdi ki, İstanbul seçkilərində əksəriyyət siyasi ekspertləri gözlədiyi oldu. Amma sadəcə, fərqin bu qədər böyük olacağı gözlənilmirdi. Hətta peşəkar araşdırma aparan rəy sorğusu mərkəzləri də bunu etiraf edirlər. Seçkinin nəticəsi bir daha sübut etdi ki, təkrar seçki qərarı siyasi baxımdan yanlış idi. Seçicilər onların iradəsinə zidd gedilməsinə bu cür çox sərt reaksiya verdi:** “Digər tərəfdən, seçki prosesində atılan bir sıra addımlar, xüsusən də seçkini udmaq naminə Abdulla Öcalanla danışıq aparılması, onun HDP-yə müraciət məktubunun ortaya çıxması, rəqiblərə qarşı AKP-nin, xüsusən də onun liderinin çox sərt siyasi ritorikadan istifadə etməsi və bu müddətdə sosial-iqtisadi vəziyyətdə baş verənlər öz sözünü dedi.

Təbii ki, bu təkcə İstanbul seçkisi deyildi. Bu həm Türkiyədaxili siyasətə təsir edəcək, həm də Türkiyənin xarici siyasətinə də müəyyən korrektələr gətirəcək. Çünki bu seçkinin nəticələri bir sıra məsələləri üzə çıxardı. Aydın oldu ki, Türkiyədə prezidentlik üsul-idarəsinə keçid, ölkədə siyasi sistemin yenidən formatlanması prosesi gedir. Bütün partiyaların daxilində bu proses gedir. Qarşıda AKP və CHP daxilində bu prosesin daha ciddi şəkildə gedəcəyinin şahidi olacağıq. Bir tərəfdən keçmiş baş nazir Əhməd Davdoğlunun, o bir tərəfdən keçmiş prezident Abdulla Gülün və sabiq xarici işlər naziri Əli Babacanın yeni partiya quracağı deyilir. Yaxın dövrdə bu məsələyə də tam aydınlıq gələcək. Türkiyə yaxın dövrdə siyasi qütbləşmənin dərinləşməsi prosesini yaşayacaq.

İstanbulda seçkini uduzmaq iqtidar üçün bir siyasi qırılma hesab oluna bilər, ancaq bu hadisəni hakimiyyətdən gedişin başlanğıcı saymıram.

Əkrəm İmamoğlunun kürdlərə, ermənilərə, rumlara və digər millətlərdən olan vətəndaşlara təşəkkür etməsi, onları qucaqlaması məsələsinə gəlincə, İmamoğlu başqa cür çıxış eləyə bilməzdi. Çünki bütün istanbulluların bələdiyyə sədri seçilib, demokratik dəyərlərin tələbi baxımından o cür çıxış etməli idi. Onun qalib gəlməyində həmin qüvvələrin də, xüsusən də HDP elektoratının səsi həlledici rol oynadı. Şübhəsiz ki, İmamoğluna səs verənlərin mövqeyi, təsiri əvvəlki dövrə nisbətən artacaq".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, Türkiyədə seçkilərdə xalqın iradəsi təcəllə etdi. Bir daha sübut olundu ki, Türkiyədə iqtidara gətirən də, iqtidardan salan da ancaq və ancaq türk xalqının demokratik seçimidir:** “Mən Binəli Yıldırımın qalib olmasını istərdim. Ancaq İstanbul sakinləri öz seçimlərini etdilər və İmamoğluna şans verdilər. Bizlərə də İstanbul sakinlərinin iradəsinə hörmətlə yanaşmaq düşər. Ümid edirəm ki, AKP və CHP qarşılıqlı anlaşma və işbirliyi ilə İstanbulun daha da böyüməsinə, inkişaf etməsinə xidmət edəcəklər. İstəməzdim ki, İstanbul şəhəri iqtidar-müxalifət arasında savaşın poliqonuna çevrilsin. İstər Ərdoğan və Yıldırımın simasında AKP-nin, istərsə də İmamoğlu və Kılıçdaroğlunun simasında CHP-nin seçki sonrası verdikləri ilkin pozitiv mesajlar deməyə əsas verir ki, hər kəs üzərinə düşən məsuliyyəti anlayır. Bundan sonra AKP ciddi, köklü, dərin araşdırmalar apararaq İstanbul, Ankara daxil böyük şəhərlərdə seçicini itirmə səbəblərini aydınlaşdırmalı və bu istiqamətdə işlər görməlidir. Hər seçki partiyalar üçün özlərində islahatlar və dəyişikliklər etmək üçün əsaslar verməlidir. İstənilən halda qardaş Türkiyəyə və xalqına uğurlar arzulayıram”.

**VİP sədri Əli Əliyev bildirdi ki, İstanbul seçkiləri Türkiyənin demokratik dövlət olduğunu bir daha sübut etdi:** “Necə olmasından asılı olmayaraq, qanun şahdır. Bütün dünya üçün hesablaşılmalı faktordur. İkinci tərəfdən, aydın göründü ki, demokratiyada daimi idarəçilik mövcud deyil. Xalq yenilik istəyir. Heç bir demokratik dövlətdə müstəsnalıq kompleksi yoxdur.

Bunun üçün Türkiyə ən böyük nümunədir. Hakim xalqdır. O isə daimi rəyə malik deyil".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019

**Azərbaycan hakimiyyəti sabitliyin yeni formulunu artıq yeni fazaya keçirib. İqtidar müxtəlif zümrələrlə, həssas kontingentlərlə işləməyə üstünlük verir. Bu proqram şəhid ailələrinə qan pulunun ödənilməsindən başlayaraq problemli kreditlərin həlli, minimum əmək haqqının 6 ayda iki dəfə artırılmasına qədər əhatə elədi.**

# Prezident İlham Əliyevin yeni sabitlik formulu

Prezidentin vətəndaşlarla görüşləri, şikayət məktublarını əlbəəl alması, məhkəmə-hüquq sistemində islahatlara başlandığının elan olunması hökumətin sabitliklə bağlı tətbiq etməyə başladığı yeni formuladır.

Əyalətlərdə yerli icra hakimiyyətlərinə camaatla işləmək, şikayətlərə baxmaq, mətbuatda ictimailəşdirilən problemləri araşdırmaq tapşırılır, nazirlər bölgələrdə görüşlər keçirir, ən əsası yarım il ərzində iki dəfə minimum əmək haqqının əvvəlcə 50, sonra 40 faiz artırılması ölkədəki mümkün sosial gərginliyi tam azaldıb.

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, prezident İlham Əliyevin rəhbərliyi dövründə bütün büdcələr sosialyönümlü olub. Deputatın sözlərinə görə, xüsusilə yanvardan başlayaraq prezidentin verdiyi sosialyönümlü qərarlar, fərmanlar, yanan "Diqlas" ticarət mərkəzində zərərçəkən sahibkarlara dövlətin yardımı birmənalı olaraq hamı tərəfindən alqışlandı.

**Ç.Qənizadə qeyd etdi ki, ardınca 849 min nəfəri əhatə edən problemli kreditlərin həlli ilə bağlı qərar insanlara böyük dəstək oldu:** "Eyni zamanda köçkünlərin, tələbələrin müavinətlərinin, əmək haqlarının artırılması bütövlükdə 3 milyon insanı ehtiva etdi. Bu, hələ ilin əvvəlində atılan addımlar idi. Vətəndaşlar prezidentin onların yanında olduğunu, problemlərini həll etdiyini gördü. Bir neçə gün əvvəl isə 2 milyon insanı əhatə edən minimum əmək haqqının 40 faiz artırılması, vətəndaşların sosial rifahına yönəlik addımlar atılması göstərdi ki, prezident hər zaman xalqın yanındadır, büdcə imkanlarından vətəndaşların xeyrinə istifadə edilir".



**Çingiz Qənizadə:** "Prezident hər zaman xalqın yanındadır, büdcə imkanlarından vətəndaşların xeyrinə istifadə edilir"



**Gövhər Baxşəliyeva:** "Prezidentin son sərəncamları sosial islahatların növbəti inqilabi mərhələsidir"

**Komitə üzvü bildirdi ki, vətəndaşlar ən çox sosial problemlərdən şikayət edirdilər:** "Cənab prezidentin icra başçılarına tapşırığı vanydı ki, xalqın içində olsunlar, şikayətlərini dinləsinlər. Bundan sonra məmurların sakinlərin problemlərini şəxsən dinləməsi, vətəndaş üçün vəzifəli şəxsin əlçatan olması şikayətlərin yerində həllinə gətirib çıxardı.

Artıq bölgələrdən insanlar yuxarı instansiyalara əvvəlki qədər müraciət etmirlər. Mən bunu məhkəmə hakimiyyətinə aid etmirəm, hələ də bu istiqamətdə problemlər var".

**Ç.Qənizadə bildirdi ki, dövlət başçısı sosial problemlərin həlli üçün maliyyə mövcudluğundan istifadə edir:** "İnsanlar onun dəstəyini görür. Bu, hələ son deyil, yeni-yeni addımlar atılacaq.

Onu da deməliyəm ki, maaş artımı həm də digər sahələrdə çalışanları məsuliyyəti olmağa vadar edir. Məsələn, hakim 3-4 min manat maaş alanda qeyri-prosessual addım atmaqdan çəkinir. Ona görə də prezidentin sosial rifahın yaxşılaşdırılması istiqamətində islahatları davam edəcək, yeni-yeni addımların şahidi olacağıq".

**Deputat Gövhər** Baxşəliyeva isə sia.az-a deyib ki, prezident tərəfindən imzalanan sosialyönümlü sənədlərin hər biri Azərbaycan vətəndaşının rifahının yüksəldilməsi, ölkənin mövqeyinin daha da gücləndirilməsinə xidmət edir.

O bildirib ki, iyunun 18-də prezident tərəfindən bu istiqamətdə imzalanan 17 sənəd ölkəmizdə həyata keçirilən siyasətin vətəndaşlarımızın sosial müdafiəsinin daha da yüksəldilməsinin prioritet istiqamət olduğunu sübut edir.

"Minimum aylıq əmək haqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında son sərəncamları ölkədə həyata keçirilən sosial islahatların növbəti inqilabi mərhələsidir", - deyə xanım deputat vurğulayıb.

**G.Baxşəliyeva qeyd edib ki, bu addım ümumilikdə dövlət və özəl sektorda çalışanların gələcək sosial təminatlarına da müsbət təsir edəcək:** "Çünki artan əməkhaqlarından sosial sığorta və işsizlikdən sığorta haqları üzrə ödəmələr də çoxalır. Belə olan halda işçinin fərdi hesabındakı pensiya daha da artır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



## 24 iyun və Elçibəy taleyi...

### Azərbaycanın sabiq prezidenti ad günündə səlahiyyətlərini itirib

**İyunun 24-ü milli azadlıq hərəkatının lideri, mərhum prezident Əbülfəz Elçibəyin həm doğum, həm də prezidentlik səlahiyyətlərinin Milli Məclis tərəfindən ondan alındığı gündür.**

Öncəliklə sabiq dövlət başçısının keçdiyi həyat yolu barədə məlumat veririk.

Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) 1938-ci il iyunun 24-də Ordubad rayonunun Kələki kəndində anadan olub. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (ADU) şərqşünaslıq fakültəsini bitirib. Bir müddət Misirdə tərcüməçi kimi çalışıb, Bakıya qayıtdıqdan sonra ADU-da müəllim işləyib. 1975-ci ilin yanvarında Azərbaycan DTK-sı onu tələbələr arasında millətçi və antisovet təbliğatı aparmaq adı ilə həbs edir və 17 iyul 1976-cı ilədək azadlıqdan məhrum edir. İyarımlıq həbsdən sonra Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda çalışmağa başlayıb. O, 1988-ci ildə Azərbaycanda başlayan milli azadlıq hərəkatının liderlərindən biri, Azərbaycan Xalq Cəbhəsini yaradanlardan olub.

1992-ci il iyunun 7-də prezident seçilən Əbülfəz Elçibəy bir il sonra iyunun 4-də Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun rəhbərliyi ilə qanuni hakimiyyətə qarşı Gəncədə başlayan hərbi qiyamdan sonra Bakını tərk edib və 1993-cü il iyunun 17-də Ordubad rayonunun Kələki kəndinə gedib.

Bundan bir həftə sonra Milli Məclisin qərarı ilə onun səlahiyyətlərinə son verilir. Elçibəyin prezidentlikdən kənarlaşdırılması barədə qanun layihəsini o zaman AXC iqtidarına qarşı ana müxalifət sayılan Azərbaycan Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov qanunverici orqana təqdim edib. Bu qanun layihəsini isə AMİP-dən olan vəkil Fuad Ağayev hazırlayıb. 23-24 iyun tarixlərində gedən gərgin müzakirələrdən sonra qanun layihə qəbul olunub.

Səlahiyyətləri əlindən alındıqdan sonra Ə.Elçibəy siyasi fəaliyyətini Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Bütöv Azərbaycan Birliyinin sədri kimi davam etdirib.

Uzun sürən ağır xəstəlikdən sonra 2000-ci il avqustun 22-də Türkiyənin Ankara Dövlət Xəstəxanasında dünyasını dəyişən Əbülfəz Elçibəyin nəşi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn edilib.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# İstanbul seçkilərinin üzə çıxardığı həqiqət - xalq amili

## Tural Abbaslı: "Siyasi arenanın əsas və həlledici gücü xalqdır"

## Qulamhüseyn Əlibəyli: "Siyasət xalq üçün həyata keçirilən bir fəaliyyətdir"

**İyunun 23-də İstanbulda keçirilən bələdiyyə seçkilərinin ikinci turu bir daha siyasətdə xalq amilinin əsas rol oynadığını önə çıxardı. 800 mindən çox səs fərqi ilə ana müxalifət CHP-nin namizədi Əkrəm İmamoğlu rəqibi, hakim AK Partiyanın təmsilçisi Binəli Yıldırım üzərində parlaq qələbə qazandı. Halbuki seçkilərin ilk turunda, yəni martın 31-də keçirilən və sonradan nəticələri ləğv edilən seçkilərdə bu üstünlük 13 min civarında idi. Amma bircə ayın içərisində o, 790 min səs artırdı.**

Bu, şübhəsiz ki, xalqın Türkiyə siyasətinin özəyini təşkil etdiyini göstərdi. Əslində xalqın iradəsinin həyata keçdiyi bir çox hadisələr Azərbaycanda da baş verib. Misal olaraq, 1992-ci ilin mayında sabiq prezident Ayaz Mütəllibovun istefası ilə nəticələnən xalq inqilabını göstərə bilərik. Həmin ilin martında xalq Mütəllibovu istefaya göndərdi. Bunun üzərindən iki ay keçməmiş o, Rusiyanın diktəsi ilə yenidən rəhbərliyə geri dönüş etdi, lakin xalq onu iki gün ərzində təzədən devirdi. Bu hadisədən 20 gün sonra keçirilən seçkilərdə isə xalqın iradəsi ilə Əbülfəz Elçibəy prezident seçildi.

**Lakin AĞ Partiya başqanı Tural Abbaslı fərqli düşünür:**





"Mən deməzdim ki, məhz İstanbuldakı seçkilər siyasətdə "xalq" amilinin vacibliyini önə çıxardı. Siyasətdən azacıq da olsa anlayışı olan hər kəs bilir ki, siyasi arenanın əsas və həlledici gücü xalqdır. Sadəcə olaraq, bəzi iqtidarlar məqsədyönlü şəkildə xalqı siyasətdən kənarda tutmağa çalışırlar. Ancaq xalq bu və ya digər səbəbdən siyasi səhnəyə döndükdə artıq hər şeyi o diktə edir və onun iradəsi üzərində heç bir iradə olmur. Zamanında 1988-1992-ci illərdə SSRİ-yə qarşı qəhrəman xalqımızın iradəsini bütün dünyaya nümayiş etdirdiyimiz buna bariz sübutdur. İstanbuldakı seçkilər və oradakı xalqın iradəsini miqyas olaraq zamanındakı hadisələrin miqyasıyla eyniləşdirməzdim. Çünki xalqın zülm imperiyasına qarşı mübarizəsiylə, bələdiyyə sədrliyi uğrunda keçirilən seçkilərdəki iradəni müqayisə etmək qüsurlu olar. Hər hadisənin öz yeri var. Ancaq hər ikisi xalq amilinin gücünü açıq-aşkar nümayiş etdirən nümunələrdir".

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli siyasətin xalq üçün həyata keçirildiyini dedi:** "Siyasətdə normal haldır. Qanun əsasında normal siyasi mühitdə həyata keçirilən siyasətdə aparıcı rolu xalq amili daşıyır. Çünki siyasət xalq üçün həyata keçirilən bir fəaliyyətdir. Siyasi fəaliyyətlə məşğul olan şəxslər mandatını xalqdan almalı, xalqa arxalanmalıdır. Doğrudur, avtoritar ölkələrdə xalq amili siyasətdə elə də əsas rol oynamır. Amma demokratik ölkələrdə belə deyil, xalq faktoru həlledicidir. Biz bunu İstanbulda bir daha gördük. Düzdür, hakimiyyətdə olan siyasi partiya bu şəhərdəki məğlubiyyəti qəbul etməməyə çalışdı, bunun üçün bir dəfə seçkinin nəticələrini ləğv də etdi. Amma yenə xalq öz sözünü dedi. Mesaj verildi ki, Türkiyə demokratik proseslərdə irəliyə doğru gedir. Qardaş ölkədə hakimiyyətdə olanlar da mandatlarını xalqdan alıblar. Bunu heç zaman danmaq olmaz. Amma hər halda, bu cür gərginlik seçki ətrafında yaransa da, sonda sözünü deyən xalq oldu. Əslində bu seçkilər bir çox ölkələr üçün nümunə ola biləcək bir seçkilər oldu".

**Q.Əlibəyli 1992-93-cü illərdə Azərbaycanda baş verən hadisələri İstanbul seçkiləri ilə müqayisə etdi:** "1992-ci ildə təkcə may ayında deyil, maydan iki ay əvvəl martda baş verən hadisələrdə də xalq amili əsas rol oynadı. Ayaz Mütəllibov istefaya göndərildi, iki aydan sonra o, yenidən geri döndü və bu dəfə də xalq dirəniş göstərib sözünü dedi, ona imkan vermədi. Həmin il iyunun 7-də keçirilən seçkilərdə də xalq öz sözünü dedi. Amma ondan sonrakı dövrlərdə nə bu hadisələrlə, nə də İstanbul seçkiləri ilə müqayisə ediləcək hadisələrin ölkəmizdə yaşandığını düşünmürəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019

# Prezidentin irad bildirdiyi problemlər necə aradan qaldırılır - qurumlardan açıqlama

## Baş nazir "Azəriqaz" və "Azərsu"dan hesab sordu

**İyunun 20-də baş nazir Novruz Məmmədovun yanında hökumət üzvlərinin iştirakı ilə iclas keçirilib. İclasın gündəliyinə "Qaz təchizatı sahəsində mövcud durum, problemlərin aradan qaldırılması və sistemin dayanıqlı inkişafının təmin edilməsi üzrə kompleks tədbirlər haqqında", "Ölkə əhalisinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi sahəsində görülən işlər, xidmətin keyfiyyətinin yüksəldilməsi və infrastrukturun daha da təkmilləşdirilməsi ilə bağlı qarşıda duran cari və perspektiv məsələlər haqqında" məsələlər də daxil edilib.**

Nazirlər Kabineti mətbuat xidmətinin yaydığı məlumata görə, baş nazir bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azəriqaz" İstehsalat Birliyinin fəaliyyətində yol verilən nöqsanları və bu sahədə olan bir sıra problemləri səsləndirib, çatışmazlıqların aradan qaldırılması, şəffaflığın təmin olunması ilə bağlı tapşırıqlarını verib: "Novruz Məmmədov qeyd edib ki, ölkəmizdə əhalinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi istiqamətində bu günə qədər bir sıra mühüm layihələr icra edilib. Bununla yanaşı, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, su təchizatı xidmətlərinə görə ödəniş səviyyəsinin yüksəldilməsi, istehlak edilən suyun uçotunun dəqiq aparılması və itkilərin qarşısının alınması məqsədilə müvafiq suölçən cihazların quraşdırılması ilə bağlı işlərin davam etdirilməsi qarşıda duran prioritet məsələlərdir".

İclasda SOCAR prezidenti Rövnəq Abdullayevin, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun məsələlərlə bağlı məruzələri dinlənilib.

**Qeyd edək ki, Nazirlər Kabinetinin bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirəsində Prezident İlham Əliyev "Azəriqaz" İB-in fəaliyyətini tənqid etmişdi. İ. Əliyev bildirmişdi ki, qazlaşdırma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də işlər aparılır.** "Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verildi, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin.

Eyni zamanda "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır".

**Prezidentin tənqidi çıxışından sonra "Azəriqaz"da geniş müşavirə keçirildi. "Azəriqaz" İB-in baş direktoru Əkbər Hacıyev müşavirədə deyib ki, ölkə başçısının iradlarının aradan qaldırılması istiqamətində işlər aparılmaqdadır və qısa zaman ərzində həmin nöqsanlar aradan qaldırılacaq:** "Dövlətimizin başçısının qaldırdığı bütün məsələlər qurum tərəfindən təhlil edilir və tədbirlər həyata keçirilir. Hazırda "Azəriqaz" İB-də qeyd olunan çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər proqramı işlənilir. Həmin tədbirlər proqramına uyğun olaraq bütün nöqsanlar aradan qaldırılacaq".

Prezidentin çıxışından sonra qaz təchizatı üzrə abonentlərdən daxil olan müraciətlərin obyektiv araşdırılması və operativ həlli ilə bağlı "Azəriqaz" və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb.

Müşavirədə bildirilib ki, istehlakçıların sayının artması qaz təchizatında təzyiqin aşağı düşməsinə və bəzi hallarda fasilələrin yaranmasına səbəb olur. Bu kimi halların qarşısının alınması istiqamətində respublika ərazisində ciddi işlərin aparılması planlaşdırılır. Belə ki, ilk öncə istismar müddətini başa vurmuş qaztənzimləyici avadanlıqlar, qurğular, o cümlədən də qaz xətləri yeniləri ilə əvəzlənməsi, artan qaz tələbatı ilə əlaqədar kiçik diametrli boruların böyük diametrli müasir standartlara cavab verən polietilen yeraltı qaz xətləri ilə əvəz olunması, eləcə də yeni qazlaşdırılan bütün yaşayış məntəqələrində şəbəkənin qurulmasının "bir pilləli" tənzimləmə sistemi əsasında aparılmasıdır ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicisindən istifadə etməsinə, istehlakçılara verilən qazın sabit və texnoloji rejimdə saxlanılmasına zəmin yaradacaq.

**Onu da bildirək ki, prezidentin tənqidindən sonra Hesablama Palatası "Azəriqaz"da yoxlamalara başlayıb. Məsələ ilə bağlı açıqlama verən "Azəriqaz" İB-in ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev yoxlamaların aparıldığını təsdiqləyib:** "Bütün idarə və təşkilatlarda olduğu kimi Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən "Azəriqaz" İstehsalat Birliyində dövri yoxlamalar aparılır. Bu yoxlamalar qrafik üzrə həyata keçirilir. Yoxlamaların nə zaman bitəcəyi dəqiq bilinmir".

Baş nazirin yanındakı iclasda məsələnin bir daha müzakirəyə çıxarılması göstərir ki, ölkə rəhbərliyi qaz, enerji və su təchizatı sahəsində keyfiyyət dəyişikliyinə nail olunması məsələsini diqqətdə saxlayır.

**İ.Kərbalayevin "Yeni Müsavat"a dediyinə görə, prezidentin səsləndirdiyi nöqsanların aradan qaldırılması üçün "Azəriqaz" İB-də hazırlanan tədbirlər planı sürətlə icra olunur:** "Birlikdə keçirilən müşavirədən dərhal sonra tədbirlər planında nəzərdə tutulan istiqamətlər üzrə işlərin icrasına başlanılıb. Artıq həm abonentlərin müraciətləri əsasında, həm də planlaşdırılmış şəkildə istehlakçıların keyfiyyətli qaz təchizatının təmin olunması sahəsində xeyli işlər görülüb. Tezliklə planda nəzərdə tutulan bütün işlər yekunlaşacaq".

**"Azəriqaz" rəsmisi bildirir ki, ölkə ərazisində, xüsusilə də Bakıətrafı qəsəbələrdə qazın normal təzyiqinin təmin olunması istiqamətində də işlər aparılır:** "Burada söhbət həm mövcud aşağı ötürücülük qabiliyyətli xətlərin orta ötürücülük gücünə malik xətlərlə, həm də köhnəlmiş, korroziyaya uğramış boruların yenisi ilə əvəz olunmasından gedir. Hər iki istiqamətdə görülən işlər imkan verəcək ki, nəinki qış fəslində, ilin bütün aylarında yaşayış məntəqələrimizi davamlı və normalara uyğun təzyiqli qazla təchiz edə biləK".

**Baş nazirin yanındakı iclasda müzakirə olunan məsələlərdən biri də su və kanalizasiya təchizatı sistemində uçotun dəqiq aparılması, xidmət keyfiyyətinin yüksəldilməsi olub. "Azərsu" ASC ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Anar Cəbrayıllının "Yeni Müsavat"a dediyinə görə, qurum tərəfindən hər iki sahədə işlər görülür:** "Nazirlər Kabinetinin iclasında su istehlakçılarının tamamilə sayğaclaşdırılması işinin tezliklə başa çatdırılması məsələsi qoyulub. Nəzərinizə çatdırım ki, "Azərsu" ASC abonentlərinin 82 faizdən yuxarısı sayğaclaşdırılıb. Qeyri-əhali abonentləri üzrə bu göstərici 98-99 faiz təşkil edir. Əhali qrupu üzrə sayğaclaşma işləri davam etdirilir. Hədəfimiz qarşıdakı 2-3 il ərzində bütün istehlakçıların sayğacla təminatını başa çatdırmaqdır. Keyfiyyətli təchizat məsələsinə gəlincə, hazırda çoxmənzilli yaşayış binalarının daxili su xətlərinin yenidənqurulması işləri aparılır".

**A.Cəbrayıllının verdiyi məlumata görə, "Azərsu" tərəfindən 36 şəhər və rayon mərkəzində su və kanalizasiya sisteminin yenidənqurulması işlərinə başlanıb:** "Artıq bunların 14-də nəzərdə tutulan işlər yekunlaşıb. Builki plana əsasən Qəbələ, Qax və Ağsuda su və kanalizasiya şəbəkələrinin, Xırdalan və Şəmkirdə isə kanalizasiya şəbəkəsinin yenidənqurulmasını başa çatdıracağıq. Eyni zamanda Qazax və Horadizdə layihələrin icrasına başlamışıq. Bundan əlavə, 10-dan artıq kənddə, Bakı ətrafındakı qəsəbələrdə su təchizatı şəbəkələrinin qurulması işləri həyata keçirilir".

**Xidmət rəhbəri bildirir ki, ölkənin bir neçə yerində çirkabtəmizləyici qurğular tikilir:** "Pirşağı, Naftalan, Daşkəsən, Qəbələdə belə qurğuların tikintisi gedir. Beyləqanda, Xaçmazda, Gədəbəydə və Tərtərdə də başlayırıq bu işlərə. Lökbatanda böyük sutəmizləyici qurğu inşa olunur, artıq yeraltı tunellərin çəkilişinə başlanıb. Xocasən-Sulutəpə-Binəqədi-Xırdalan kollektoru tikilir. Eyni zamanda Pirşağı istiqamətində kanalizasiya kollektorunun çəkilişi başa çatdırılıb, əsas daşıyıcı qurğular da hazırdır. Hesablamalarımıza görə, Abşeron yarımadasında 8100 kilometr yeni su xətti, 7000 kilometr isə kanalizasiya xətti və kollektor çəkilməlidir. Biz bununla bağlı təklif və planımızı da təqdim etmişik".

**❑ DÜNYA, "Yeni Müsavat"**

# Trampın İranla bağlı “qamçı-kökə” siyasəti- bölgəmizdə böyük savaş təhlükəsi

## ABŞ prezidentinin Tehrana yeni danışıq ismarışının arxasında hansı niyyət dayanır; **politoloq:** “Baxmayaraq ki, ABŞ Fars körfəzindəki tərəfdaşları ilə müəyyən məsləhətləşmələr aparır, yenə də məqsəd İranı nüvə proqramından əl çəkməyə məcbur etməkdən ibarətdir”

**ABŞ-İran savaşının qapıda olduğunu güman edənlər növbəti dəfə yanıldılar. Buna səbəb ABŞ prezidenti Donald Trampın Oman Sultanlığı vasitəsilə İran hakimiyyətinə göndərdiyi ismarışdır.**



Dünya mediasının yazdığına görə, Tramp öz ismarışında İrana hücum edəcəklərini vurğulasa da, müharibə deyil, müzakirə istədiklərini qeyd edib. Belə ki, ABŞ lideri İrana müzakirələrə başlamaq üçün möhlət verib.

Digər məlumatda deyilir ki, Tramp Amerika pilotsuz təyyarəsinin vurulmasına cavab olaraq İrana hərbi zərbələrin endirilməsini bəyənib, amma sonra əməliyyatı ləğv edib. Bildirilir ki, zərbələrin hədəfləri bir sıra İran obyektləri, həmçinin radiolakasiya sistemləri və zenit-raket kompleksləri olmalı idi. Daha sonra Tramp NBC televiziya şirkətinə müsahibəsində bildirib ki, o, İranla misli görünməmiş dağıntılara gətirib çıxaracaq müharibəyə başlamaq istəmir. “Mən müharibəyə (İranla -red.) cəhd etmirəm və əgər o olacaqsa, onda heç kimin görmədiyi dağıntılar olacaq”, - deyə Tramp əlavə edib.

Qeyd edək ki, İran İslam İnqilabı Keşikçilər Korpusu ölkənin cənub hissəsində İranın hava məkanını pozan Amerika pilotsuz təyyarəsini vurduqlarını açıqlayıb. Tramp bunu “İranın çox böyük səhvi” adlandırıb, ancaq daha sonra bildirib ki, bunun qəsdən edildiyinə inanmır.

Tehranın ABŞ təhdidləri qarşısında direniş göstərməsi gərginliyin artacağına şübhə yeri qoymurdu. Qeyd edək ki, İran prezidenti Həsən Ruhani beynəlxalq təşkilatları Amerika pilotsuz təyyarəsi ilə bağlı hadisənin fonunda Fars körfəzində ABŞ-ın hərəkətlərinə cavab olaraq lazımi ölçüləri qəbul etməyə çağırıb. İran lideri bu haqda Parlamentlərarası İttifaqının prezidenti Qabriel Kuevas Barronla görüşdə bildirib. O vurğulayıb ki, ABŞ qoşunlarının regionda genişlənməsi burada problemlərin əsas səbəbidir.

**Hurriyyet.org xəbər verir ki, İranın Dəniz Qüvvələri komandanı Hüseyn Hanzadi ABŞ-a məxsus pilotsuz uçuş aparatının vurulmasının Vaşinqtona qarşı “sərt bir cavab” olduğunu bildirərək, ölkənin hava məkanının pozulacağı təqdirdə, yenə də eyni cavabı verəcəklərini söyləyib. Fars İnformasiya Agentliyinin yazdığına görə, Hanzadi deyib:** “Düşmən (ABŞ) ən müasir texnologiyaya sahib olan pilotsuz uçuş aparatını qadağan olunmuş bölgəyə göndərdi və onun vurulduğunun şahidi oldu. Açıq şəkildə bəyan edirik: eyni cəhdin təkrarlanacağı halda, düşmənə verilən sərt cavab da təkrarlanacaq. Düşmən bunu bilir”.

Son gedişata dünya mediasının maraqlı yanaşması var. Modern.az xəbər verir ki, İran və Böyük Britaniya KİV-ləri baş məqalələrinə “ABŞ prezidenti Donald Tramp İranla bağlı mövqeyini yenə dəyişdi”, sərlövhəsini qoyublar.

**Böyük Britaniyaya bu günlərdə etdiyi dövlət səfərində Tramp bu ölkənin İTV telekanalına müsahibəsində İrana qarşı hərbi əməliyyatların istisna olunmadığını bildirib:** “... Mənin istəyimdən asılı olmayaraq, İrana qarşı hərbi əməliyyatların həyata keçirilməyəcəyini iddia etmək olmaz”.

ABŞ prezidenti deyib ki, hərbi əməliyyat məsələsi həmişə nəzərdə olub.

Düzdür, Yaponiyaya səfəri zamanı da Tramp bəyan etmişdi ki, ABŞ İranla müharibəyə can atmır. Lakin sonradan onun Hörmüz boğazına ordu cəlb etməyə başladığı barədə iddialar tirajlandı. Həmçinin ABŞ lideri iyunun 18-də jurnalistlərə açıqlamasında Oman dənizində İranın iki neft tankerinə hücumundan və hökumətin buna münasibətindən danışıb. “Sepah”ın neft tankerlərinə bombalı hücumunu “kiçik və cüzi bir məsələ” adlandıran Tramp deyib ki, Amerika Birləşmiş Ştatları İranın regiondakı bütün hərəkətlərini nəzarət altında saxlayır: “Amerika Birləşmiş Ştatları İranın bu kimi əməllərinin qarşısını almağa tam hazırdır. Baxıb görək nələr baş verəcək”, - Tramp demişdi.

Xatırladaq ki, iyunun 13-də Oman dənizində Yaponiya və Norveçə məxsus iki neft tankerində partlayışlar baş verib və gəmilərdən birində yanğın əmələ gəlib. Gəmilərə bombalı hücum Yaponiyanın baş naziri Şinzo Abenin Tehranda İranın dini lideri Əli Xamneyi ilə görüşdüyü vaxta təsadüf edib. Rəsmi Tehran neft tankerlərinə qarşı hücumları “şübhəli” adlandıraraq, bu olayda əli olduğunu təkzib edir.

Trampın İranla bağlı “qamçı və kökə” siyasəti maraq doğurur. Ancaq hələ ki bir sualın cavabı konkretləşməyib: Ağ Ev sahibi taktiki gediş edir, yoxsa gerçəkdən İran faktorunu nəzərə aldığı üçün savaşdan yayınmağa çalışır? Hər halda, ABŞ-ın əvvəlki liderlərinin İraq, Əfqanıstan və Suriya səhvləri nəzərə alınmaya bilməz. İran isə digərləri ilə müqayisədə daha nəhəng bir rəqibdir. İstənilən halda, bölgəmizdə fəlakətlərə səbəb ola biləcək savaş təhlükəsinin ertələnməsi rəyini yaradır son gedişat. Ancaq təhlükə tam sovuşdumu, demək çətindir...

**Politoloq Arzu Nağıyev “Yeni Müsavat”a bu haqda danışarkən dedi ki, ABŞ mütəmadi olaraq belə metodlardan istifadə edir:** “Praktikada buna misal kimi Şimali Koreya ilə danışıqları göstərmək olar. Lakin orada əsas hədəf Çin idi və düşünürəm ki, bu metodla öz istəyinə qismən nail oldu. İndi də ABŞ İranı bir vasitə kimi istifadə edərək Rusiyanı da hədəfə götürə bilər. Zənnimcə, burada Rusiyanı lokallaşdırmaqla, İsraildən də istifadə ediləcək və bu proseslərdə İordaniya və Yaponiya əsas fiqurlardan olacaq”. **Politoloq şübhə etmir ki, ABŞ İranla genişmiqyaslı müharibəyə getməyəcək:** “Lakin ümumi maraqları qabardaraq istədiyinə nail olmaq üçün hərbi yoldan da istifadə edəcək, bu, sırf təzyiq yolu ola bilər. Baxmayaraq ki, ABŞ Fars körfəzindəki tərəfdaşları ilə müəyyən məsləhətlər aparır, yenə də məqsəd İranı nüvə proqramından əl çəkməyə məcbur etməkdən ibarətdir. Bunu ABŞ prezidentinin köməkçisi Boltonun regiona, daha doğrusu, BƏƏ -yə səfəri də bir daha təsdiqlədi. Oman körfəzində gəmilərə hücumun, Səudiyyə Ərəbistanında neft kəmərinin partladılmasının da İran tərəfindən edildiyini misal gətirən Bolton bu faktları boş yerə açıqlamır. Bununla paralel olaraq ABŞ və Yaponiya rəhbərlərinin görüşündə də əsas danışıq predmetlərindən biri İran məsələsi oldu. Məlumdur ki, Yaponiya ilə İran arasında normal siyasi, iqtisadi əlaqələr mövcuddur və idxal olunan neftin 5 faizini də İrandan alır”. **A.Nağıyev hesab edir ki, Yaponiyanın İranla olan münasibətləri onu ABŞ-İran danışıqlarında vasitəçiyə çevirə bilər:** “Bu da həm İran, həm də Yaponiya üçün faydalı olar. Yaponiyaın əsas marağı odur ki, baş verənlər neftin qiymətinin kəskin qalxmasına gətirə bilər və bu isə onun iqtisadiyyatı üçün ən ağır zərbədir. Təbii ki, İran da bu vasitəçiliyə daha maraqla razıdır, çünki ABŞ-Yaponiya münasibətləri çox yüksək səviyyədədir. Bu danışıqlar baş tutarsa, İran -Yaponiya münasibətləri siyasi, iqtisadi və hətta elmi-texniki inkişafa təkan verə bilər. Yaponiyanın siyasi avtoritetinin yüksəlməsi üçün bu vacibdir və avtomatik olaraq Rusiyanın İrana təsirini azalda bilərlər. Bundan başqa, müharibənin başlamasının qarşısının alınması Yaponiyanı dünya ictimaiyyətində yeni bir mövqeyə qaldıra bilər. Bütün bunlar bir daha göstərir ki, ABŞ-ın məqsədi diplomatik və digər təzyiq mexanizmlərindən istifadə etməklə, öz tərəfdaşları ilə birlikdə həm Rusiyanın nüfuzunu azaltmaq, eyni zamanda İranla bağlı siyasətdə tam qələbəyə nail olmaqdan ibarətdir”.

❑ **Cavìd TURAN,**
**“Yenì Müsavat”**

# İvanişvili bu dəfə də “sudan quru çıxa” biləcəkmi?..



**Hüseynbala SƏLİMOV**

**Rusiya təxribatlarda Gürcüstanın siyasi dairələrini, Gürcüstan hakimiyyəti isə, o cümlədən prezident S.Zurabaşvilinin özü Rusiyanı ittiham edir - bəli, peşəkar təxribatçılar belə işləyir, özlərindən sonra heç bir iz qoymurlar.**

Əlbəttə ki, bu yalnız adicə bir zarafatdır. Əslində isə Gürcüstandakı növbəti siyasi böhranın təfərrüatları hamıya, özü də detallarına qədər bəllidir - Gürcüstanı Abxaziyanın və Cənubi Osetiyanın anneksiyası ilə barışmağa çağıran, dəfələrlə bu bölgələrə səfərlər edən bir adamın ölkədə, xüsusən də onun parlamentində peyda olması və hətta həyasızlıq edərək spikerin yerində oturması gürcü parlamentariləri arasında başqa reaksiya doğura bilməzdi.

Maraqlıdır ki, gürcülərin yerində olsaydılar rusiyalı deputatlar özləri necə hərəkət edərdi? Doğrudanmı onlar ölkələrinin ərazi bütövlüyünün əleyhinə olan adamı gül-çiçəklə qarşılayardılar?..

Üstəlik, belə bir təəssürat yaranır ki, Rusiya hakimiyyətinə sadəcə, bəhanə lazım imiş ki, bu azad xalqa qarşı növbəti kampaniyaya başlasın.

Prinsipcə, ölkəsi iqtisadi sanksiyaların ağırlığını yaşayan normal bir adam başqa ölkələrə qarşı sanksiyalar tətbiq etməyə tələsməzdi, çünki sanksiyaların təsiri həmişə ikitərəfli olur, onlar bu sanksiyaları qəbul etmiş ölkənin özünə də ziyan vurur. Üstəlik, bu məhdudiyyətlər həm də Rusiya vətəndaşları, xüsusən də varlı ölkələrə səfərlər edə bilməyən və öz yay və qış istirahətlərini Gürcüstan kimi yaxın ölkələrdə keçirən orta təbəqəyə aid olan ruslar üçün də problem yaradacaq.

Amma Rusiyada hər şey çox güclü şəkildə siyasiləşdirilib, hətta deyərdik ki, geosiyasiləşdirilib. Bu günlərdə özünün növbəti mətbuat konfransı zamanı prezident Vladimir Putin digər ölkələri keçmiş SSRİ-nin dərslərini unutduqlarına və öz qaydalarını digər ölkələrə sırımağa çalışdıqlarına görə qınadı.

Doğrudan da gülməli deyilmi? Əslində nəinki keçmiş SSRİ-nin, hətta Pyotr Rusiyasının belə möhürü - “Parçala və hökm sür!” prinsipi hələ də məhz Kremlin siyasətində qalıbdır, hansı ki, özünü az qala, keçmiş sovetlərin ərazisindəki bütün dövlətlərin kiçik xalqlarının “vəkili” elan edərək və onların yalnız yeni Rusiya imperiyasının tərkibində azad inkişaf edəcəyini iddia edərək bu ölkələrdə etnik separatizmi stimullaşdırır və onlara təkan verir ki, separatizm vasitəsilə həmin keçmiş sovet ölkələrinin siyasətinə və durumuna təsir edə bilsin, onları daim təzyiq altında saxlasın.

Əlli, yüz il yox, vur-tut iyirmi il bundan əvvəl Kreml bütün hərbi vasitələrlə, hətta hərbi aviasiyadan istifadə edərək kiçik İçkeriyanın - Çeçenistanın milli azadlıq hərəkatını qan içində boğdu.

Üstəlik, bu son illərdə həqiqi federalizmin bütün prinsiplərini dövlətçiliyinin hüquqi - konstitusion əsaslarında heçə endirərək “öz ətrafında azad respublikaların ittifaqını yaradan Rusiya”da nədənsə federal subyektlər üçün ən əsas-ali hüququ - federasiyanın tərkibindən çıxmaq hüququnu nəzərdə tutmadı.

Odur ki, Kreml rəhbərləri və strateqləri bəzi keçmiş sovet ölkələrində, o cümlədən də Gürcüstandakı rusofobiyanın əsl səbəbləri haqqında yaxşı- yaxşı düşünsəydilər, heç də pis olmazdı, hərçənd, burada rusofobiyadan yox, Kremlin siyasətinə və siyasətçilərinə qarşı fobiyadan söhbət gedir.

Həqiqətən də siz niyə görə sevilməlisiniz, cənablar? Doğrudanmı az qala, dünyanın yarısı sizə azlıq edir? Doğrudanmı düşünürsünüz ki, keçmiş sovet ölkələrini təzədən anneksiya etsəniz öz Rusiyanızı təkrar böyük fövqəldövlətə çevirəcəksiniz? Məgər aydın deyilmi ki, sizin artıq bu ölkələrə təklif etməyə heç nəyiniz yoxdur? Özü də söhbət tək iqtisadi - sosial dəyərlərdən deyil, həm də mədəni-mənəvi dəyərlərdən də gedir!

Odur, Gürcüstan artıq Rusiya imperiyasının keçmişidir və siz onu bir daha qaytara bilməyəcəksiniz.

Düşünürük ki, indiki siyasi aksiyalar gürcü siyasətinin anti-Rusiya istiqamətini daha da gecləndirəcək və ona dönməz xarakter verəcəkdir.

Hətta əgər cənab B.İvanişvilinin komandasına bu dəfə də bir neçə kadrını qurban verərək “sudan quru” çıxmaq müyəssər olsa, yenə də siz gürcü daxili siyasətinin bu vektorunu da əsl rusiyapərəst bir qüvvəyə çevirə bilməyəcəksiniz, böyük ehtimalla bu dəfə də uğursuzluğa düçar olacaqsınız.

Bizə elə gəlir ki, böhran qabarıq siyasi məzmun alacaq. Artıq belə tələblər eşidilir ki, 2024-cü ili gözləməyə ehtiyac yoxdur və ən yaxın vaxtlarda parlamentə sırf proporsional əsasda seçki keçirmək lazımdır.

Xatırladaq ki, ölkə konstitusiyasına görə növbəti parlament seçkiləri də qarşıq sistem əsasında keçirilməlidir və yalnız 2024-cü ildə proporsional sistem tam oturuşmalıdır. Amma duyulanı budur ki, belə bir perspektiv partiyaları, xüsusən də əsas müxalifəti qane etmir. Amma gəlin nəticələrlə tələsməyək, çünki ən yaxın vaxtlarda siyasi mənzərə tam aydınlaşacaq: İvanişvili bir az əvvəldə qeyd etdiyimiz kimi, özünün bir-iki kadrını qurman verərək canını qurtaracaq, yoxsa ki, Gürcüstanda növbəti “qızılgül inqilabı” yetişir?...



# Qatarın açıq qapısı

Zamin HACI
zaminhaci@gmail.com

"Bizim şəhəri vəba təhdid edəndə o, şəhər həkiminin xahişi ilə öz alovlu nəfəsini gölə püskürtdü və gölü qaynatdı. Bütün şəhər qaynadılmış su içdi, epidemiyadan xilas oldu"

**(Yevgeni Şvars, "Əjdaha" pyesindən)**

**Hökumət maaşları artırmaq qərarı verən kimi qiymətlər də qalxır. Hətta bəzən qiymətlər namərdlik eləyib hökumətin qərarının qüvvəyə minməsini gözləmirlər. Örnək üçün, son maaş artımı qərarı, deyəsən, sentyabrdan hesablanacaq, ancaq bir çox zadın qiyməti dünəndən qalxmışdır. Bu da əhalinin haqlı narazılığına səbəb olur, ölkəmizdə aparılan dinc quruculuq işlərinə mane olur, dövlət qulluqçularının nəzakətlilik prinsiplərini pozur, sistemli yanaşmaya imkan vermir. Gərək qiymət idarəsindən tələb olunsun, bu sahəyə nəzarət güclənsin. Bizdə adətən belə olur: nəzarət güclənməsə xeyri yoxdur. Odur, seçkilərə nəzarət güclənəndən bəri heç bir saxtakarlığa yol verilmir. Dünən mən xəbər gördüm, Ərdoğan müxalifətçi Əkrəm İmamoğlunu İstanbula mer seçilməsi münasibətilə təbrik etmişdir. Görün nə qədər demokratik yanaşmadır. Bizdə də belədir, sadəcə, müxalifət heç Biləcərinin Qıllıdərə məhəlləsində qalib gəlməyi bacarmır. Yoxsa niyə təbrik eləməyək? Bir dövlət, iki millətik.**

O baxımdan, hesab edirəm, gələcəkdə maaşlar artırılanda qiymətlərin sakit oturması haqda ora hansısa əlavə edilsə, dövlətçilik məqsədlərimizə uyğun olar. Biz daima millətin rifah halını fikirləşməliyik. Baxın, hava dəhşət isti keçir, "Sədərək" yarmarkasında nəfəs almaq mümkün deyildir. Sraǧagün getmişəm, o üzdən dəqiq bilirəm. Nəticədə Vergilər Nazirliyindən bir neçə yoldaş gedib orada alver edənləri cərimələyiblər. Tacirlər cərimədən narazı qalıb tətil elan edibdir - dükanı bağlayıb evlərinə gediblər. Görün nə qədər humanist nəticə alınıbdır! Orada qalsalar, günvurmadan ölə bilərdilər.

Yaxud Bakı metrosunda ventilyasiya, havalandırma problemi bütün dünyaya məlumdur. Mən eşitdiyimə görə, Sakit okeandakı Marian çökəkliyinə enib elmi tədqiqat aparan alimləri bir neçə aylığına gətirib "Dərnəgül-Əhmədli" marşrutunda metroya buraxırlar, burada onlar dərin qatlarda havasız qalmağın, o cümlədən, oksigensiz mühitdə yetişən canlıların sirlərini öyrənirlər, hazırlıq kursu keçirlər (bu arada Eldar Mahmudovun uşaqlarından xahiş edirik, Metro Tağının 3 milyon dollarını qaytarsınlar). Bəs idarə bu problemi necə həll edir? Olduqca sadə: maşinistlər tunellərdə vaqonların qapısını açıq qoyub sürürmüş! Bəli, dahilik sadəlikdir. Qatarın qapılarından vurub-çıxan hava kütlələri hərəkət zamanı inanılmaz effektli sərinlik yayır, hətta bir çox sərnişinin tükləri biz-biz olur. Əlbəttə, qorxudan yox, soyuqdan. İndi AZAL ekspertləri metronun bu təcrübəsini öyrənib uçuşlar zamanı tətbiq eləməyi düşünürlər.

Ancaq bəzən zəhmətkeşlərimiz bu yenilikləri qəbul eləməkdə, qavramaqda, anlamaqda çətinlik çəkir, qəzetlərə şikayət yazırlar. Sitat: ""Yeni Müsavat"a daxil olan məlumata görə, bu ilin may ayının 28-də "20 Yanvar" stansiyası istiqamətində maşinist Fazil Rəsulovun idarə etdiyi qatar stansiyada saxlamadan yoluna davam edib. İyunun 7-də 1-ci yolda maşinist Tərlan Tağıyevin idarə etdiyi qatar "Koroğlu" stansiyasını saxlamadan keçib". Sitatın sonu. Görün bu şikayəti edən yoldaş nə qədər savadsızdır, dövlətçilik ruhundan necə uzaq düşübdür! Allah səni öldürsün, Pənah bəy demişkən. Axı "20 Yanvar" stansiyasında düşmək sənin nəyinə lazımdır, əgər düzgün adamsansa? Orada taksi sürücüləri metronun çıxışında tərlan kimi dayanırlar. Məni bir dəfə Biləsuvara, başqa bir gün isə Sumqayıta tutub aparırdılar, yolda tualetə getmək adıyla düşüb birtəhər qaçmışam. O cümlədən, maşinist "Koroğlu" stansiyasında nə üçün qatarı saxlasın? Bəs Koroğlu babamızın adına layiq vətəndaşları necə yetişdirməliyik? Bacarırsansa, özün qatarı saxla, düş, hara istəyirsən cəhənnəm ol. O vaxt Koroğlu Çənlibelə çıxanda bəlkə maşinistdən icazə almışdı? Adam o boyda dəlini idarə eləyirdi, siz bir vaqon adam yola gətmirsiniz. Yox, bunların hərəsinə görə bir dəfə qatar dayanmalıymış. Qələtinizi eləyin, yenə Pənah bəy demiş...

Çox əsəbləşmişəm, ona görə yazını burada saxlayıram.



# Bakının ildırımsürətli savaş planı: İrəvanın Gürcüstan yolu təlaşı

## Tiflisdəki olaylar səbəbindən işğalçı ölkəni Rusiyaya bağlayan sonuncu əlaqə də kəsilir; **Ermənistanın sabiq baş naziri:** "Azərbaycan kəşfiyyatı xeyli fəallaşıb, Bakı bizi müharibəyə vadar edəcək!.."

**Gürcüstanda Rusiya və yerli hakimiyyət əleyhinə etiraz dalğası davam edir. Qonşu və strateji tərəfdaş ölkədə baş verənlər Dağlıq Qarabağ münaqişəsi kontekstində də maraq doğurur və diqqətə layiq hesab sayıla bilər. Ona görə ki, Rusiya bölgədə Ermənistanın əsas müttəfiqi və dayağıdır, işğalçı ölkənin xaricə əsas çıxışı, özəlliklə Rusiya ilə əlaqələri, yükdaşımalar müstəsna olaraq Gürcüstan vasitəsilə həyata keçirilir.**

Son günlər isə Gürcüstanla Rusiya arasında nəqliyyat əlaqələrinin, aviaəlaqələrin kəskin məhdudlaşdığı müşahidə edilir. O səbəbdən baş verənlər İrəvanda ciddi təşviş yaratmağa başlayıb. Nədən ki, nəticə etibarilə Gürcüstandakı proseslər Ermənistanın blokadasını gücləndir ki, bu da Azərbaycanın maraqlarına cavab verir. Hətta daha bir uğurlu lokal hərbi əməliyyat aparmaq üçün Bakıya unikal fürsət yaradır...

*****

"Gürcüstanda çox maraqlı hadisələr cərəyan edir. Hələ də soyumayan anti-Kreml ovqatı səbəbindən Rusiya-Gürcüstan dəmir yolu və Ermənistanı Rusiyaya bağlayan Yuxarı Lars aşırımı bağlanıb. İrəvanla Rusiya şəhərləri arasında əlaqə müstəsna olaraq, hava vasitəsilə həyata keçirilir".

"Yeni Müsavat"ın məlumatına görə, bu həyəcanlı sözləri özünün facebook səhifəsində Ermənistanın keçmiş baş naziri və eks-deputat **Qrant Baqratyan** Gürcüstanda davam edən etirazları və situasiyanı şərh edərkən deyib.

**Keçmiş hökumət başçısı daha sonra yazıb:** "Gürcüstanda baş verənlərin (bizim üçün - "YM") ciddi nəticələri ola bilər. Azərbaycan kəşfiyyatı hazırda xeyli fəallaşıb. Bakı quru yol marşrutlarının qapadılmasını nəzərə almaqla gürcü-rus münasibətlərini zondaj eləməyə çalışır. Axı bu, gürcülər üçün elə də qorxulu deyil. Ancaq nəticə etibarilə Rusiyanı Ermənistana bağlayan dəmir yolu əlaqəsinin qapanmasına gətirəcək. Bunun ardınca Azərbaycan bizi müharibəyə vadar edəcək".

*****

Göründüyü kimi, neçə vaxtdır Gürcüstan vasitəsilə özünə Rusiyadan əlavə dəhliz (Abxaziya dəmir yolu) açmağa çalışan, bu yöndə rəsmi Tiflisə müxtəlif reveranslar edən İrəvan indi onu əsas müttəfiqi ilə birləşdirən iki dəhlizdən - dəmir və avtomobil yolundan da məhrum olmaqdadır. Düşmənin təlaşı anlaşılandır. Azərbaycanla hərbi toqquşma variantında işğalçı ölkə Gürcüstana həm də yeganə xilas yolu kimi, Rusiyadan iqtisadi və hərbi kömək almağın tək imkanı kimi baxır.

Hərçənd bu dəqiqə Ermənistanın özündə də Rusiyaya münasibətdə əsla xoş ovqat hökm sürmür. Erməni toplumunda anti-Kreml əhvalı gürcü cəmiyyətindən heç də az deyil. Hər halda, Nikol Paşinyan dönəmində belədir və özünü vaxtaşırı şəkildə açıq surətdə büruzə də verir - baxmayaraq ki, Gürcüstandan fərqli olaraq, Ermənistan bütünlüklə Rusiyadan asılıdır, onun bölgədəki "hərbi qalası", daha dəqiqi, vassalı statusundadır.

Ancaq Ermənistanın bir şeydə bəxti gətirməyib. Onun öz əsas havadarı Rusiya ilə quru sərhədi yoxdur və olan-qalan əlaqə də təbii ki, yalnız Gürcüstan vasitəsilədir. Düşmən ölkə həmçinin ondan narahatdır ki, hərbi gücü onsuz da üstün olan Azərbaycanla müharibə variantında Rusiyadan Gürcüstan vasitəsilə hərbi xarakterli yüklər də daşına bilməyəcək.

Ancaq Azərbaycanın şübhəsiz ki, Ermənistana hücum eləmək planı yoxdur. Buna hazırlaşmır da. Heç ordumuz qarşısında Dağlıq Qarabağa girmək kimi bir hədəf də qoyulmayıb, yoxdur. Çünki Dağlıq Qarabağ ətrafında 1-2 rayonun ildırım sürətilə azad edilməsi kifayətdir ki, separatçı rejimin başında duran kriminal-separatçı-terrorçu ünsürlər, oradakı erməni əsilli Azərbaycan vətəndaşlarını 30 ildir girov saxlayanlar başlarının dəstəsi ilə dağılıb getsinlər.

Yeri gəlmişkən, 2016-cı ilin "4 günlük" aprel savaşında onlar çamadanları hazır vəziyyətə gətirmişdilər. Bunu özləri, erməni qaynaqları yazmışdı. Bu dəfə çamadanları götürməyə fürsət qalmaya bilər...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019




# Prezident İlham Əliyevin General Sərəncamları Azərbaycana nə verdi - təhlil

## Dövlət başçısının son sərəncamlarının daha bir fəlsəfəsi də var: o, kimsəni cəzalandırmadan böyük bir siyasi tənlik həll etdi

**20 iyun Azərbaycanın ictimai-siyasi və dövlət həyatında yeni dönəmin başlanğıcı sayıla bilər. Prezident İlham Əliyevin 4 generalla bağlı imzaladığı sərəncamlar təkcə güc strukturlarında rəhbər dəyişikliyi kimi anlaşılmamalıdır. Bu, ölkənin ictimai-siyasi atmosferini dəyişdi.**

**Ölkənin ən məlumatlı adamının növbəti gedişi**

Prezident İlham Əliyev ölkəmizin və regionun ən məlumatlı şəxslərindəndir. Atdığı addımların əsas məntiqi məlumatlılıqdı. Onun ustalıqla qurduğu balanslı münasibətlər sistemi, idarəetmə aparatı və siyasəti bütün mərhələlərdə Azərbaycanı qoruyub və qorumaqdadır. Üstəlik, bu münasibətlər sistemi həm də başqalarına nisbətdə ona informasiya üstünlüyü yaradır. Qlobal və regional güclərin maraqları ilə Azərbaycanın maraqlarını uzlaşdırmaq və hər kəsi müttəfiqə çevirə bilmək! Hər il daha da təkmilləşən bu münasibətlər sistemi sayəsində Azərbaycan bölgə və dünya çapında gedən bəzi proseslərdə ciddi aktyorlardan birinə çevrilib. İlham Əliyevin inşa etdiyi bu sistem yalnız bizim ölkəni işğal edən aqressor Ermənistanı təkləmək xətti yürütmür; bu, minimal hədəfdir; məsələ Azərbaycanı daha da böyütmək, dünya standartlarına yüksəltməkdir; - müharibə və Ermənistanla münasibətlər Prezident üçün prioritetdir, lakin bunun da səbəbi yüksəlişə, inkişafa və bütövlüyə mane olan, sabitliyi təhdid edən faktorları aradan qaldırmaqdır.

Prezidentin 2019-cu il başlayandan atdığı bütün addımlar, verdiyi sərəncamlar, həyata tətbiq etdiyi islahatlar məhz bu xarakterlidir. Ermənistan xaric, digər istiqamətlərdəki xarici faktorlar əlverişli hala gətirilib, balanslaşdırılıb və ölkəmizi birbaşa təhdid etmir. İndi daxili faktorları daha da uyğun hala gətirmək, ehtiyac olan sahələrdə islahatlara başlamaq, əldə olunan sabitliyin əsas aktyoruna - Azərbaycan xalqına daha yaxın olmaq, onun dövlətə, Prezidentə olan inam və etibarının əmsalını yüksəltmək.

İlham Əliyev son 6 aydakı siyasi qərar və addımları ilə bir mesaj verir: bundan sonra da fəaliyyətində xalqa istinad edəcək, onun daxilindəki dayaqlarını daha da artırmaq üçün çalışacaq.

Prezident İlham Əliyev iqtidarını və dövlətini sosiallaşdırır. Azərbaycanın neft gəlirləri sayəsində ölkəsini və xalqını dəyişdirir, insanlara daha yaxşı, daha etibarlı sosial yaşam paketləri təklif edir. Son 6 aya təsadüf edən sosial açılım, islahat və iqtisadi siyasət ölkə daxilindən ciddi təqdir və dəstək aldı. Axırıncı iki devalvasiya ilə başlayan və bu ilin yanvarına kimi davam edən sosial gərginlik tamamilə aradan qaldırılıb. İctimai-siyasi mühit sağlamlaşıb. Prezidentə və dövlətimizə qarşı xaricdən ardıcıl qara piar aparan qüvvələrin auditoriyaları və inandırıcı görünə bilən arqumentləri daralıb.

Və belə bir dövrdə Prezidentin generallarla bağlı 4 sərəncamı ortaya çıxdı. Ölkəsinin və regionun ən məlumatlı adamı bu dəfə komandasını, daha da konkretləşdirsək, güc strukturlarını yeniləmək təşəbbüsü göstərir. Bu, həmin islahatların məntiqi davamıdır - xalqın içində dayaqlarını bərkidən Prezident iqtidarını da möhkəmlədir, hüquq-mühafizə və xüsusi xidmət sektorlarını yenidən formatlayır.

**İlham Əliyevin 4 generalı və gerçəkliklər**

Prezident Əliyevin kadr islahatlarının bir xüsusi özəlliyi var: məxfilik və gözlənilməzlik. Onun addımlarını bilmək, proqnozlaşdırmaq və həm də qarşısını almaq cəhdi göstərmək mümkünsüzdür.

Bu dəfə də belə oldu. Müşahidələrimizə görə, cəmiyyətin, hətta hakim düşərgə üzvlərinin əksəriyyəti son təyinatlarla bağlı məlumatlı olmayıblar. İlham Əliyev qətiyyətlidir və verdiyi qərarların məsuliyyətini bölüşməyi sevmir. Bu baxımdan da Azərbaycanda maraqlı olan bir sıra böyük güclərin kadr islahatları ilə bağlı ona təsir, xahiş və təzyiqləri olmur; görünür, bu taktikanı seçməyin bir səbəbi də bu cür faktorları dövlət həyatına buraxmaq istəməməsindən qaynaqlanır.

**Nəticə nədir: Prezident 4 generalla bağlı 4 sərəncamla nə qazandı?**

Onun bəzi siyasi opponentləri məsələni bəsitləşdirmək istəyirlər, iddia edirlər ki, heç nə dəyişmədi, bunlar onsuz da köhnə və sadiq kadrlar idilər, yenə də iqtidarda onlardır və s. Əslində isə...

**Ramil Usubov - dövlət çevrilişlərinə və erməni işğalçılarına qarşı döyüşən POLİSin simvollaşan naziri**

Lakin bir sürətli baxış görün ortalığa nələri çıxardır. Ölkənin əsas siyasi idarəsi olan və Prezidentin də oturduğu 1 saylı bina Ramil Usubovun timsalında təcrübəli və cəmiyyəti bilən, sabitlik tərəfdarı olan güclü bir idarəçi qazandı. Ramil Usubov 25 ildir daxili işlər naziridir və bu müddətin də böyük hissəsi müharibə şəraitində keçib. O, sözün bütün mənalarında döyüş generalıdır: Azərbaycan polisi erməni qəsbkarlarına və dövlət çevrilişlərinə qarşı direnişin, mübarizənin simvoludur. Ölkənin xaosda olduğu o illəri yəqin kimsə unutmayıb. Həmin illərdə Prezident Heydər Əliyev Ramil Usubovu qabağa verdi, sınadı və Azərbaycan polisi ona göstərilən etimadı doğrultdu. Polislərimiz, ümumiyyətlə, sovet dövründən (milis adlandırılanda) milli olublar, Azərbaycan uğrunda ölüb-öldürüblər. Ramil Usubov isə bu vətənpərvər başlanğıcı sistemə çevirdi, Azərbaycan polisini yenidən strukturlaşdırdı, onu daxili faktorun ən mühüm amilinə, stabilliyin simvoluna çevirdi. Onun nazir olduğu müddətdə iqtidara qarşı bütün addımları polis qarşıladı və hamısını da uddu.

Polis gücü bəzən sərt oldu; bizə də, cəmiyyətdə birilərinə də, siyasi opponentlərə də dəydi: lakin belə olmayanda da dövlət təhlükəyə girir, xaos yaranır, (Elçibəy iqtidarı nümunəsində) çökür. Hər bir iqtidarın birinci vəzifəsi özünü qorumaqdı, sonra xalqı. Qəza vəziyyəti yaşayan təyyarələrdə bir təlimat var: öncə özünün oksigen avadanlığını (maska) taxacaqsan, sonra yanında oturanın! Yanındakı övladın da olsa, qayda budur! Dövlət qəzalarının və bu qəzalarda qazavat verən polisin də öz qaydaları var...

Prezident İlham Əliyev deyir: "Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir".

Bu, Azərbaycan Prezidenti İlham Əliyevin ən müxtəlif auditoriyalarda, bir az fərqli ifadələrlə səsləndirdiyi heç zaman dəyişməyən məntiqidir. O, haqlıdır! Hazırda dünyada baş verən fəlakətlərin, insanlıq dramlarının əsas səbəbləri sabitlik faktorunun pozulmasıdır. Prezident Əliyev ölkəsində sabitlik olsun istəyir, qan tökülməsin istəyir, insanlar ölməsin, köçlər, qaçqınlar olmasın istəyir və bunun üçün çalışır. Əsas kredolarından birinin sabitlik olduğu Prezidentin son General Sərəncamlarının fəlsəfəsi də budur! Polis naziri Ramil Usubovu siyasi vəzifəyə aparmasının anlamı da buradadır. Sabitlik və sədaqət simvolu olan generallar ölkədəki açılım və islahatlardan yaranan boş sahələrdə təxribat etmək istəyən qüvvələrə qarşı təlimat və mandat aldılar! Yuxarıda qeyd etdiyimiz YÜKSƏK MƏLUMATLILIQ məsələsinə bu nöqtədə yenidən dönək! Və xatırladaq: bu sərəncamları verən bölgə dövlətlərinin içərisində ən məlumatlı Azərbaycan Prezidentidir!

**Təhlükəsizlik sistemi Əli Nağıyevin timsalında peşəkar idarəediciyə qovuşdu!**

Prezidentin sərəncamlarından biri ilə ölkənin təhlükəsizlik xidməti və əks-kəşfiyyat seqmenti peşəkar rəhbərliyə qovuşdu. Bu, bəzi siyasi opponentlərin "hə, noolsun" janrında mız qoymalarından daha ciddi hadisədir. Azərbaycanın təhlükəsizlik seqmenti Eldar Mahmudovdan sonra ciddi zədələnib və Mədət Quliyevin insani obrazı ilə xeyli reanimasiya olunub. Lakin böhran tam keçməyib. Buna görə də prezident bu cür radikal qərar verdi!

Qəzetçiyik və hər kəslə anındaca təmas qurmaq imkanlarımız var. Bu yazı hazırlanarkən istefada olan iki yüksək rütbəli təhlükəsizlik zabitinin rəyini soruşduq: biri özünü general Əli Nağıyevə dost sayırdı, digəri isə ona xüsusi pozitiv münasibət bəsləmirdi. Amma hər ikisinin bir-birindən xəbərsiz verdikləri rəydə ortaq nöqtə nə oldu? "Peşəkardır, yüksək təşkilatçılıq qabiliyyəti var, güclü komanda toplaya bilir, başladığı işi sona çatdırandır..."

Əli Nağıyev MTN-də nazir müavini olduğu dövrdə təkcə Eldar Mahmudovla vuruşmayıb. O, Eldar Mahmudovun nazirlikdəki və nazirlikdən kənarda formalaşdırdığı cinayətkar şəbəkə ilə savaşıb. Ölkənin qosqoca siyasətçilərini, nazirlərini, başqa yüksək vəzifəli şəxslərini ən müxtəlif üsullarla özünə tabe etdirən, onların bəzilərini "aylıq haqq"a otuzduran, az qala hər şeyə və hər kəsə hökm etmək iddiasında olan Mahmudov bu hikkəsini Əli Nağıyevə keçirə bilmədi. Hətta 2011-ci ildə Ə.Nağıyev vəzifədən gedib, prokurorluq sisteminə təyinat aldıqdan sonra da E.Mahmudov ondan əl çəkməyib. Bu və ya digər şəkildə Ə.Nağıyevi zəiflətmək, ona mane olmaq üçün müxtəlif oyunlar qurmağa çalışıb. Fəqət bunların heç biri baş tutmayıb. Əli Nağıyev Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində müavin postunda oturaraq həm ona həvalə edilən vəzifəsinin öhdəsindən layiqincə gəlməyi bacardı, həm də səbrlə vaxtını gözlədi. Siyasi səhv buraxmadan Prezidentin sayəsində zəfər dönüşünü reallaşdıra bildi.

Ölkənin milli təhlükəsizliyinin keşiyində dayanan zabit və şəxsi heyətə, bu adsız və iddiasız qəhrəmanlara şükranlıqlarımızı bildirməklə, həm də onları təbrik edirik.

**Vilayət Eyvazov – Prezident Ramil Usubovun DİN-dəki üslubunu davam etdirmək qərarı verdi**

Ramil Usubovdan sonrakı dönəmdə polis naziri ola biləcəklər arasında Vilayət Eyvazovun adı ön sırada çəkilirdi. Lakin başqaları da vardı və iddiaçıların sayı heç də 1 rəqəmi ilə ölçülə bilməz...

İlham Əliyev iqtidarını sevməyənlər Vilayət Eyvazovu da sevmirlər. O, Azərbaycan dövlətinin ən həssas məqamında siyasi səhnəyə çıxıb, qətiyyət və güc göstərib, mövqeyini ortaya qoyub. Vilayət Eyvazov İlham Əliyevin və indi davam edən iqtidarın uğrunda döyüşüb, meydanda geri çəkilməyib. O və onun kimilər olmasa idi, 2003-cü ildə vəziyyət tamamilə başqa cür inkişaf edərdi; biz zamanında "səngərin" o tayından da siyasi səhnəyə baxmışıq, mənzərə və kimin kim olduğunu tam bilirik! O zamankı siyasi komanda, İlham Əliyev başda olmaqla, qətiyyət və iradə göstərdi. Lakin meydandakı polis gücü də bu qətiyyəti lazım olan qədər təmsil edə bildi.

*(davamı səhifə 10-da)*

# Prezident İlham Əliyevin General Sərəncamları Azərbaycana nə verdi - təhlil

## Dövlət başçısının son sərəncamlarının daha bir fəlsəfəsi də var: o, kimsəni cəzalandırmadan böyük bir siyasi tənlik həll etdi

*(əvvəli səhifə 9-da)*

**Vilayət Eyvazov o zaman iqtidarı əlində silah qorudu: lakin bütün əski foto və videolardan da göründüyü kimi, o silah xalqa tuşlanmadı, mərmilər havaya atıldı, lakin havayı atılmadı...**

Bəziləri daxili işlər naziri Vilayət Eyvazovun 2003-cü ildəki o fotosunu yeri gəldi-gəlmədi, ona qarşı qara piar kimi istifadə edir. Lakin dünyanın çox üzünü görmüş, dövlət və iqtidar çevrilişlərini yaşamış bir jurnalist kimi deyə bilərik ki, əslində bu foto bir polis kimi Vilayət Eyvazov üçün vizit-kartdır.

Unutmayaq ki, zamanında Elçibəy hakimiyyəti Usubov kimi polis naziri, Eyvazov kimi polis komandanı olmadı deyə, Surət Hüseynovun başıpozuq dəstəsinə məğlub oldu.

Yeni nazir Vilayət Eyvazov məhz şəxsi və peşəkar keyfiyyətlərinə görə ölkə prezidenti İlham Əliyev tərəfindən fərq edilib, vəzifə pillələrində hər zaman qabağa çəkilib. İndi ona növbəti etimad göstərilib. Onunla bərabər, həm də əfsanəvi nazir Ramil Usubovun xəttinə. Xətt də bəllidir: Azərbaycan polisi ölkəni və dövləti nəyin bahasına olur-olsun, qoruyacaq, bu istiqamətdə güc işlətməkdən belə çəkinməyəcək. Lakin stabillik naminə, Azərbaycan naminə güc olsun, amma xaos olmasın, qarşıdurma və ölümlər, insan dramları yaşanmasın...

Bildiyimiz həm də odur ki, DİN-də hər şey yerində saymayacaq: Vilayət Eyvazov polis sistemində yüksək intellektə və reformaçı təfəkkürə malik generallardandır. Ona Azərbaycan polisinin ən müasir standartlara uyğunlaşdırmaq, modernləşdirmək kimi vəzifələr tapşırılıb və əzmkarlığı və inadı cənab Eyvazova bu sahədə lazım olacaq.

### Mədət Quliyev: cana yatımlı, təvazökar, islahatçı və əlçatan bir DTX rəisi

Prezidentin Mədət Quliyevlə bağlı sərəncamı da maraqla şərh olunmaqdadır. Onun DTX-dən Müdafiə Sənayesi Nazirliyinə rəhbər təyinatı neçə gündür müzakirə olunur. O, Eldar Mahmudovun cinayətkar dəstəsinin canavara, qorxunc obraza döndərdiyi MTN-i olduqca ağır miras kimi qəbul etdi, həmin obrazı insanilәşdirdi, millilәşdirdi. Dövlət Təhlükəsizliyi Xidmətinə rəis gətirilən Mədət Quliyev özünün xarakterik göstəriciləri sayəsində cəmiyyətə göstərdi ki, heç də bütün təhlükəsizlik generalları Çovdarov, Mahmudov kimi amansız olmurlar! Sadə, cana yatımlı, təvazökar, islahatçı və əlçatan bir DTX rəisi tanıdı Azərbaycan ictimaiyyəti. O, kimlərinsə evini yıxmadı, pulunu yağmalamadı, günahsız adamların başına torba keçirdib, zirzəmilərə salmadı. Mədət Quliyevin təhlükəsizlik xidmətindəki dövrü keçid dövrü sayıla bilər: O, ağır "xəstəni reanimasiyadan palataya" çıxarmağı bacardı. İndi rahatlıqla başqa, çox ağır bir sahəyə transfer oluna bilər.

Formal və real olaraq onun vəzifəsi yüksəldilib: Prezident onu rəis statusundan azad edib, nazir statusuna gətirib. Lakin getdiyi sahə də təxminən MTN kimi çətin və problemlidir.

M.Quliyev nazir təyin edildikdən 1 gün sonra "Yeni Müsavat"a eksklüziv açıqlamasında demişdi: "Biz əsgərlərik. Dövlət başçımız uğurla, qətiyyətlə, mətinliklə dövlətimizi irəli aparır və dövlətimiz inkişaf edir. Biz də dövlətimizin başçısının ətrafında daha da sıx birləşərək, Azərbaycanın daha da qüdrətlənməsi və daimi zəfərləri naminə bundan sonra da bütün qüvvəmizlə və fədakarlıqla çalışacağıq, xidmət edəcəyik".

Bəli, onun əsgərliyi indi də müdafiə sənayesi naziri kimi davam edir.

Mərhum Yavər Camalovdan miras qalan Müdafiə Sənayesi Nazirliyi çox güman ki, Mədət Quliyevin ora gəlişindən sonra xeyli dəyişəcək. Necə ki, M.Quliyev bundan əvvəl Penitensiar Xidmətdə və DTX-də ciddi dəyişikliklər etmişdi...

****

### Prezident İlham Əliyev istəyir ki...

Bu yazımızla istədik ki, Prezident İlham Əliyevin son addımlarına dair bəzi düşüncələrimizi oxucularımız və tarixlə bölüşək.

Prezidentin son sərəncamlarının daha bir fəlsəfəsi də var: o, kimsəni cəzalandırmadan böyük bir siyasi tənlik həll etdi: Prezident Administrasiyası güclü və təcrübəli bir idarəedici - Dövlət Təhlükəsizlik Şurasının katibini qazandı; DİN sistemi həm yeniləndi, həm gücləndi, həm də 25 illik xəttini qorudu; Dövlət təhlükəsizliyi sistemi çoxdan gözlədiyi peşəkar idarəedicisinə qovuşdu, həm də ədalət bərpa olundu; Müdafiə sənayemiz yorulmaz və novator nazir əldə etdi...

Azərbaycan rəhbəri ölkəsinin və xalqının ətrafda cərəyan edən xaos və qarşıdurmalardan qorunması, sərhədləri içərisində firavan, rahat yaşaması üçün bəzi addımlar atır. Yaxın Şərq ölkələrindən tutmuş, Güney Qafqaza kimi, hər yer qaynayır, çox yerlər də destabilizasiya ocağı olmaq ərəfəsindədir. Qonşu və dost Gürcüstanda baş verənlərin, Qazaxıstanda, Moldovada, Ermənistanın sərhədləri içərisində cərəyan edənlərin fonunda Azərbaycan bir sabitlik adasıdır.

Sabitlik bizim ən böyük nemətimiz və gələcəyə gedən yolumuzdur!



**❑ Azər AYXAN,**
**"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini**

# Keçmiş nazirin Londona sığınan oğlu radikal dini təriqət üzvü olub - təhlükə

## Əvəz Zeynallı: "Azərbaycan hakimiyyəti bu adamların əllərindəki pullardan, dini baxışlarından ciddi narahat olmalıdır"

**Sabiq kənd təsərrüfatı naziri İsmət Abbasov oğlu Yunis Abbasovun Londonda böyük mal-mülkünün üzə çıxması haqda ötən həftə yazmışdıq. Bu günlərdə isə onun dini baxışları ilə bağlı xəbərlər yayılıb. "Yeni Müsavat"a etibarlı mənbənin verdiyi məlumata görə, Y.Abbasov Londonda radikal dini təriqət üzvü olub. Onun sələfi olduğu haqda məlumatlar dolaşır.**



İsmət Abbasov Yunis Abbasov

Yunis Abbasov uzun illərdir ki, Londonda yaşayır. Özünün açıqlamalarına görə, orada özünə biznes qurub. Belə iddialar da var ki, oğul Abbasovun Londondakı biznesi ata Abbasovun kapitalı hesabına formalaşıb, dirçəlib. İsmət Abbasov isə heç vaxt biznesmen olmayıb, onun məmur olaraq maaşı da oğluna böyük varidat ötürməsinə imkan verəcək qədər deyil. Ehtimal olunur ki, Yunis Abbasovun biznesinin mayasında atasının nazir və başqa vəzifələrdə işlədiyi dövrlərdə qeyri-qanuni yollarla əldə etdiyi pullar dayanır. Zaman-zaman yerli və xarici mediada Yunis Abbasovun varidatı haqda xəbərlər yayılır. Hazırda Abbasovların Dumanlı Albionda 21 milyon dollarlıq mal-mülklərinin olmasını təsdiqləyən sənədlər ortalıqdadır. Belə anlaşılır ki, Yunis Abbasov bir neçə 10 milyonluq varidatın sahibidir. Onun Böyük Britaniyada radikal dini təriqət üzvü olması xəbəri də yeni deyil. Bildirilir ki, Abbasov hələ Londonda təhsil alarkən dini baxışlarını dəyişib və sələfi təriqətinin daşıyıcısına çevrilib. Böyük pullara sahib Yunis Abbasov məmur oğlu olaraq dini baxışlarını dəyişən ilk azərbaycanlı deyil. Bakının keçmiş icra başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbovun da sələfi olması iddiaları illərdir ki, mətbuatda dolaşır və təkzib olunmur.

İsrafil Abutalıbov da Yunis Abbasov kimi uzun müddət Londonda yaşayıb. Bakıya illər sonra tamam başqa qiyafədə və düşüncədə qayıdan Hacıbala Abutalıbovun oğlu o dövrdə BŞİH başçısı olan atasının belə işdən çıxmasına təkid etməsi xəbərləri yayılmışdı. Belə xəbərlər vardı ki, İsrafil Abutalıbov vəhhabilər kimi uzun saqqal saxlayıb, onlar kimi şalvarının balağını gödəldib. Valideynləri bundan təəccüblənsə və gözləmədikləri belə yeniliyə etiraz etsə də, o, heç kimə və heç nəyə məhəl qoymadan düşüncəsindən dönməmişdi. İsrafil Abutalıbovun İçərişəhərdəki "Aşurbəy" ("Ləzgi məscidi") məscidinə baş çəkdiyi, Suriyaya döyüşməyə gedən azərbaycanlı vəhabilər arasında təbliğat apardığı və onlara maliyyə dəstəyi göstərdiyi barədə informasiyalar da vaxtilə mətbuat səhifələrindən düşməmişdi. Türkiyə mətbuatında İsrafil Abutalıbovun Abu Bəkr kimi təqdim olunması da yaddaşlardan silinməyib.

Ölkədən çıxarılan milyonlar hesabına xaricdə özlərinə biznes quran, dini baxışlarını radikal təriqətçiliyə dəyişənlərin xoşagəlməz fəaliyyəti də ola bilərmi? Belələrinin Azərbaycan üçün hansı təhlükəsi var?

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı deyir ki, bu adamları Azərbaycanla bağlayan sırf buradan daşınan pullardır:** "Bu gün xaricdə olan təkcə Yunis Abbasov, İsrafil Abutalıbobv deyil ki... Eldar Mahmudovun da, Cahangir Hacıyevin və bir çox eks məmurların da övladları Londondadır. Özləri də, ətrafları da, dost-tanışları da hamısı xaricdədir. Yəni bu adamları ölkəyə bağlayan nəsə yoxdur. Azərbaycan hakimiyyəti bu adamların əllərindəki pullardan, dini baxışlarından ciddi narahat olmalıdır".

**Əvəz Zeynallı hazırda həbsdə olan keçmiş məmur-oliqarxlardan birinin yaxını ilə söhbətini xatırlayır:** "Yanıma gəlmişdilər, bizdən dəstək istəyirdilər. Mən də dedim ki, mənə 2 ziyalı verin, sağımda, solumda otursunlar, mənim dediklərimi təsdiqləsinlər. Cavab belə oldu belə adamlar yoxdur. Nəslindən qadın, kişi, cavanların yanımda olmalarını istədim. Dedilər ki, ölkədə heç kimləri yoxdur, hamısı xaricdədir. Açıq da dedilər ki, bizi bu ölkəyə heç nə bağlamır, adam həbsdən çıxan kimi ölkədən gedəcək. Yəni bu adamlar ölkədən milyardlarla pul çıxarıblar. Zamirə Hacıyevanın timsalında bunu hamı gördü. Qadın bir günün içində bir neçə milyon funt-sterlinqi xərcləmişdi. Hələlik pullar bahalı şərablara, maşınlara, təyyarələrə xərclənir. Gələcəkdə necə olacaq? Bu pullar əslində hakimiyyətin özü üçün təhlükədir. Perspektivdə ölkəyə yaxşı heç nə vəd etmir. Hakimiyyətdaxili çəkişmələrdə həmin pullardan istifadə olunması da istisna deyil. Bu vəsaitlər Azərbaycan xalqının sərvətidir, halal puludur, hansıları ki, oğurlayıb, xaricə daşıyıblar. Hələlik həmin pullar 100 illik çaxırlara, 500 illik viskilərə, bahalı aksessuarlara, mülklərə xərclənir".

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019



# Qarabağla bağlı növbəti təhlükəli ssenari

## Vaşinqton görüşündən sonra düşmənin azalmayan təxribatları fonunda vasitəçilərin davranışları şübhələr yaradır; **politoloq:** "İrəvan həmsədrlərlə əlbir oyuna qatılıb ki, münaqişə bölgəsinə sülhməramlıları gətizdirsin..."

**Qarabağ danışıqlarının Vaşinqton raundundan sonrakı müşahidələr nikbinlik üçün elə bir əsas yaratmır. Hər halda, Ermənistanın işğal zonasında davam etdirdiyi qanunsuz əməlləri, məskunlaşdırma ilə bağlı ənənəvi mövqeyindən əl çəkməməsi bu ehtimalı gücləndirir.**




Özü də işğalçı ölkə Dağlıq Qarabağ əraziləri ilə kifayətlənmir, ətraf rayonlarda da möhkəmlənmək üçün həyasızcasına addımlar atır. Bu günlərdə işğalçı ölkə 27 ildir tapdaq altında qalan Laçın rayonunun Hoçaz kəndindəki tarixi məbədimizi abadlaşdıraraq öz kilsələri kimi açılışını edib. Moderator.az erməni mediasına istinadən xəbər verir ki, "Tufengyan" fondunun vəsaiti hesabına təmir olunmuş Azərbaycan məbədinin açılışında Qarabağın erməni keşişi Parqev Martirosyan və "Kaşataq" adlandırılmış Laçın, Qubadlı, Zəngilan ərazilərinin faktiki başçısı, ABŞ vətəndaşı Stepan Sərkisyan iştirak edib. Həmçinin ermənilər Zəngilan rayonunda stadionun açılışını həyata keçiriblər. Eyni zamanda avqust ayında keçirəcəkləri "ümumerməni oyunları"nın məşəlini "Tiqranakert" adlandırdıqları Ağdam ərazisindəki tarixi ünvanda yandırıblar.

Düşmənin həyasızlığı və təxribatları bununla bitmir. Ermənilər özləri işğal altındakı Ağdam şəhərinin ən son fotolarını yayıblar. Hazırda ermənilərin Əsgəranın inzibati sərhədlərinə daxil etdiyi və "Akna" adı verdiyi Ağdam xarabalıqlar içindədir və rayonun daimi əhalisi yoxdur. Bütün bu müşahidələr isə ondan xəbər verir ki, düşmən danışıqlar yolu ilə islah olunan deyil və sarsıdıcı zərbələrin təkrarlanmasına ehtiyac həmişəkindən böyükdür.

Görünür, Ermənistanda da böyük savaşın qarşıda olduğunu anlayırlar. Bu mənada Ermənistanda Təhlükəsizlik Şurasının iclası keçirilməsi diqqət çəkir. Turkustan.info Ermənistan KİV-nə istinadən xəbər verir ki, Nikol Paşinyanın başçılığı ilə keçirilən iclasda regiondakı situasiya müzakirə olunub. "Təəssüf ki, Ermənistanın ətrafında situasiya nəinki sabitləşməyib, əksinə, gərginliyə doğru gedir. Ətrafımızda baş verənlər bizi sayıq olmağa, təhlükəsizlik məsələlərində diqqətli olmağa sövq edir", - baş nazir deyib.

Paşinyan Ermənistanın və işğalda saxladıqları Qarabağın təhlükəsizliyini qorumalı olduqlarını da əlavə edib. Azərbaycan ordusunun irimiqyaslı təlimlərindən həyəcanlanan düşmənin təxribatlarından da əl çəkməməsi suallar doğurur. Məntiqlə, İrəvan təxribatçı hərəkətlərdən əl çəkməli idi.

Vaşinqton görüşündən sonra nələr baş verəcəyini isə proqnozlaşdırmaq asan deyil. Əslində Vaşinqtondakı XİN başçılarının görüşünün ardınca dövlət başçılarının bir araya gələcəyi bildirilirdi. Lakin hələ ki bu barədə hər hansı məlumat verilmir.

Bu arada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda bolqarıstanlı həmkarı Yekaterina Zaxariyeva ilə birgə mətbuat konfransında Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanla iyunun 20-də Vaşinqtonda keçirilən görüşü şərh edərkən diqqətçəkən fikirlər səsləndirib. "ATƏT-in Minsk Qrupu həmsədrləri bizə müzakirə üçün sənəd və təkliflər təqdim ediblər. Bu məsələləri iki-üç ay ərzində müzakirə edib yenidən həmsədrlərlə görüşməliyik" - nazir deyib.

Hələ ki İrəvan Vaşinqton görüşü ilə bağlı diqqət cəlb edən açıqlama ilə çıxış etməyib. Ancaq Ermənistanın təlaşlanmasına qonşu Gürcüstanda baş verənlərin də səbəb olduğu şübhəsizdir, bunu erməni ekspertlər də etiraf edir.

Ermənilər də anlayır ki, Azərbaycan öz ərazilərindən imtina etmək niyyətində deyil və torpaqlarını azad etmək üçün tarixi fürsət gözləyir. Elə XİN rəhbərinin digər fikirləri də ermənilərin həyəcanının əbəs olmadığı qənaətini yaradır.

**"Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ilk növbədə Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxmalıdır". Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib. Nazir bildirib ki, həmsədrlərin təklifinə əsasən yaxın 2-3 ay ərzində Ermənistanın XİN rəhbəri ilə növbəti görüş keçiriləcək:** "Bütün hallarda münaqişənin həlli üçün erməni qoşunları işğal olunmuş ərazilərdən çıxmalıdır. Digər məsələlər müzakirə oluna bilər. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistan etiraf etməsə də, Azərbaycanın ərazi bütövlüyünü tanıyır". Məmmədyarov qeyd edib ki, bu məsələ Vaşinqtonda müzakirə olunub.

**Politoloq Tofiq Abbasov qəzetimizə dedi ki, ortada oyun var:** "İrəvan Qarabağla bağlı həmsədrlərlə əlbir oyuna qatılıb ki, münaqişə bölgəsinə sülhməramlıları gətizdirsin. Status-kvonu möhkəmlətmə yolunda bu, Ermənistana lazımdı deyə, İrəvan hətta Amerika ilə sövdələşməyə hazırdır ki, özü üçün "xilasetmə kəməri" əldə etsin. Həmsədrlər Amerikada bu haqda açıq deməsələr də, bu məsələnin üstünə gəliblər. Amma Bakıya bu qətiyyən gərək deyil. 90-larda Azərbaycan sülhməramlılar planından birmənalı imtina etdi ki, buna bir daha qayıdış olmasın. İndi də Bakı bunu rədd edəcək. Lakin həmsədrlər bilməlidirlər ki, artıq danışıqlar mənasını itirib və müharibə qaçılmaz məsələyə çevrilib".

T.Abbasov hesab edir ki, ən yaxın zamanda əgər danışıqlarda yenə mənasız gündəlik olacaqsa və həmsədrlər tutarlı ideya və təklifləri ortaya qoymayacaqlarsa, deməli, hərbi kampaniya baş verəcək.

**Politoloq Məhəmməd Əsədullazadə isə "Yeni Müsavat"a dedi ki, ABŞ-ın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton görüşünü, sadəcə, danışıqlar görüntüsü kimi xarakterizə etmək olar:** "Qeyd edim ki, Minsk Qrupu həmsədrlərinin də bu görüşdə iştirakı demək olar ki, danışıqları növbəti görüş kimi təşkil edilməsinə səbəb oldu. Amma hesab edirəm ki, həmsədrlər burada iştirak etməsəydi, irəliləyişə nail olmaq üçün Vaşinqtonun təşəbbüsü alqışlana bilərdi. Göründüyü kimi, həmsədrlər burada tərəflərə konkret məzmunlu təkliflər verib. Həmsədrlər birinci dəfə deyil, belə bir təkliflə çıxış edir".

**Ekspert qeyd etdi ki, Vaşinqton görüşündə konkret detallar müzakirə olunsaydı, bu barədə məlumat verilərdi:** "Burada da atəşkəsin qorunub saxlanılması və danışıqların davam etdirilməsi razılaşdırılıb. Moskvada xarici işlər nazirlərinin görüşündə əsirlərin dəyişdirilməsi məsələsi burada açıq şəkildə qabardılmadı. Göründüyü kimi, Ermənistan da bunda maraqlı deyil".

**M.Əsədullazadə hesab edir ki, Vaşinqton görüşündə Azərbaycanın gözləntiləri doğrulmadı:** "Danışıqlarda bizi qane edən nəticə olmadı. Ona görə də liderlərin görüşündən danışmaq tezdir. Çünki konkret detallar olmadığına görə belə bir görüşə ehtiyac görmürəm. Ermənistan belə bir görüşdə maraqlı ola bilər - atəşkəsi qorumaq üçün. Amma nəticəsiz danışıqlara rəsmi Bakı getməməlidir. Düşənbə, Vyana görüşlərində Azərbaycan və Ermənistan liderlərinin görüşündə şifahi razılıq əldə olunsa da, demək olar ki, erməni tərəfi qəti şəkildə razılıqlara əməl etmir. Hesab edirəm ki, il ərzində müəyyən diplomatik kanallarla danışıqlar aparılmalı, İrəvanın konkret mövqeyi aydın olandan sonra liderlərin görüşünə ehtiyac ola bilər. Hazırda Ermənistan daxilində Paşinyana qarşı Qarabağ klanı təzyiq edir. Belə bir situasiyada Paşinyanın danışıqlarda kompromis mövqe tutacağı mümkün deyil. Azərbaycan təzyiq yolu ilə İrəvanı yalnız danışıqlarla kompromisə gətirə bilər. Hesab edirəm ki, hazırkı situasiya aydın deyil. Danışıqları erməni tərəfi tormozlayıb. Azərbaycan yalnız güc yolu ilə vəziyyəti dəyişə bilər".

**Rusiyanın "Vladtime" saytı isə iddia edib ki, Dağlıq Qarabağda müharibəyə hazırlıq gedir (Publik.az). Valeri Axrimoviçin müəllifi olduğu məqalədə bildirilir ki, Qarabağ cəbhəsində vəziyyət kəskinləşir:** "Azərbaycan tərəfi ermənilərin qumbaraatanlarla təxribat törətdiyini deyir, Ermənistan isə bunu təkzib edir. Ermənistan tərəfi iddia edir ki, Azərbaycan vəziyyətdən istifadə edərək, müharibəyə başlamaq istəyir".

**Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğu, Ermənistan tərəfindən tutulduğu qeyd olunan məqalədə müəllif münaqişə tərəflərinin hərbi potensialını araşdırıb:** "Azərbaycan ordusu daha çox inkişaf edib, nəinki Ermənistan ordusu. Azərbaycan ordusu T-90S müasir Rusiya tankları ilə silahlanıb. AN-29 və Su-25-lər Hərbi Hava Qüvvələrinin əsas bombardmançılarıdır. Quru qoşunları AK-74 M avtomatları ilə yanaşı, İsrail istehsalı olan TAR-21-lərlə də təchiz olunub. Ermənistan ordusu isə daha kasıb silahlanıb. Ermənistan ordusunun əsas döyüş tankı T-72-lərdir və bu, Azərbaycanın T-90S-ləri ilə müqayisədə köhnəlmiş texnikadır. Ermənistanda 229 tank var və bunun 200 ədədi T-72-dir. Azərbaycanda isə 962 tank var, onların da 100-dən çoxu T-90S-dir. Ermənistanın hərbi hava qüvvələrində cəmi 16 döyüş təyyarəsi var".

**Müəllif hesab edir ki, Qarabağda müharibə başlayarsa, Rusiyanın seçim problemi yaranacaq.** "Azərbaycan və Ermənistanın Rusiyadakı diasporu eyni səviyyədə güclüdür. Əgər ermənilər media sahəsində güclüdürsə, azərbaycanlılar biznes sahəsində nüfuzludur", - məqalədə deyilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019



# İstanbulda hər şey gözəl oldu

**Kənan RÖVŞƏNOĞLU**

## İmamoğlunun qələbəsi Türkiyənin demokratik imicini xilas etdi

**İstanbul təkrar bələdiyyə seçkilərində hər şey sürətli oldu. Artıq nəticələr bəllidir, rəsmi olmayan seçki nəticələrinə əsasən CHP-nin namizədi, 31 mart seçkilərinin qalibi Əkrəm İmamoğlu 54,21 faiz, ya da 4 milyon 741 min 885 səs alaraq qalib gəlib. Onun rəqibi, AKP-nin namizədi sabiq baş nazir və məclis sədri Binəli Yıldırım isə 44,99 faiz, yəni 3 milyon 935 min 429 səs alıb.**

Seçkinin ilkin nəticələrinə əsasən Binəli bəy 31 mart seçkiləri ilə müqayisədə 215 min səs itirib, İmamoğlunun isə 31 martda aldığı 4 milyon 169 min 765 səs təxminən daha 600 minə yaxın səs artıb. Bu isə bir mənada təkrar seçkiyə olan təpki idi. Hər nə qədər 31 mart seçkilərində hazırkı iqtidar partiyası AKP qazansa da, İstanbul böyük şəhər bələdiyyəsi sədri postuna nisbətən daha gənc və çalışqan, Beylükdüzü bələdiyyəsinə əvvəlki 5 il ərzində uğurla rəhbərlik etmiş Əkrəm İmamoğlu seçildi. Özü də 31 martda İmamoğlu cüzi fərqlə, yəni ilk etapda 25 min fərqlə qalib gəlmişdi. Səslərin təkrar sayılmasından sonra bu fərq 134 minə enmişdi. Amma AKP-nin nəticələri ləğv etdirib təkrar seçkilərə getməsi Türkiyə cəmiyyətində gözlənilən nəticəni verdi. Türk insanı ənənəsinə sadiq qalaraq "mağdur" edilmiş, haqqı əlindən alınmış İmamoğlunu daha böyük fərqlə qalib etdi. 31 martdakı 13 min səs fərqi 23 iyunda 806 minə yüksəldi, fərq təxminən 50 dəfə artdı.

Bu fərq isə 23 iyun seçkisini mübahisələndirməyə imkan vermədi. Fərq o qədər böyük oldu ki, həm AKP namizədi Binəli Yıldırım, həm də AKP sədri, prezident Ərdoğan qalibi təbrik etdilər. Bu isə az da olsa, yaranı sarımağa xidmət edirdi. Əslində bu tezisi apreldə də qeyd etmişdim: İmamoğlunun qalib gəlməsi bir mənada Türkiyənin və hazırkı iqtidarın imicinə xidmət edirdi. Xüsusən də dünənki seçkilərdə əgər AKP qalib gəlsəydi, o zaman ciddi şübhələrə səbəb olacaqdı. Və onsuz da son illərdə Türkiyə demokratiyası, hökumət haqqında mənfi fikir daha da dərinləşəcəkdi.

Amma İmamoğlunun qələbəsi Türkiyə demokratiyasının imicini xilas etdi. Hətta Ərdoğanın ən sərt tənqidçiləri belə indi Türkiyədəki demokratiyanı etiraf etməyə məhkumdur. Bu ən azı 2023-cü ildəki növbəti seçki perioduna qədər hökumət üçün yaxşı immunitet olacaq.

Hər nə qədər 23 iyun İmamoğlunun seçki triumfu olsa da, qarşıda onu heç də rahat olmayan 5 il gözləyir. Hazırda İstanbulun 39 rayonundan 24-də bələdiyyə sədri postu AKP-də, 14 rayonda isə CHP-dədir. Bir rayonda isə MHP. İstanbul Böyük Şəhər Bələdiyyə Məclisində isə yerlərin 45 faizi AKP-yə, 38 faizi isə CHP-yə məxsusdur, başqa sözlə, İstanbul bələdiyyə məclisi üzvlərinin 180 nəfəri AKP-MHP ittifaqının, 130-135 nəfəri isə CHP-İYİ Partiya ittifaqı üzvlərindən təşkil olunacaq. Yəni bu o deməkdir ki, qarşıdakı 5 ildə İstanbul bələdiyyə məclisində İmamoğlunun ciddi müxalifəti mövcud olacaq. Bu isə yenə də demokratiya adına müsbət hadisədir, daha çox şəffaflığın, rəqabət mühitinin yaranması deməkdir.

İstanbul bələdiyyə seçkiləri Türkiyəyə həm də yeni siyasətçi qazandırdı: Əkrəm İmamoğlu. Həm də sübut etdi ki, Türkiyə cəmiyyəti siyasi baxımdan yetkin bir cəmiyyətdir, hər zaman öz içərisindən yeni parlaq liderlər çıxara bilər. 6 ay əvvələ qədər çox adamın tanımadığı Beylikdüzü bələdiyyə sədri indi bütün dünyanın tanıdığı parlaq siyasi fiqura çevrilib. Bu həm də bir xalqın potensialının göstəricisidir.

31 mart və 23 iyun seçkiləri göstərdi ki, Türkiyədə demokratiya var, xalqın demokratiyaya inamı qalır. Bu işdə siyasi partiyaların da rolunu unutmamaq və yüksək qiymətləndirmək lazımdır. Təbii ki, hər iki seçki Türkiyədə 17 ildir AKP-nin davam edən zəfər silsiləsində kiçik də olsa büdrəmədir. Amma bu, təkcə Ərdoğanla bağlı deyil, ümumilikdə Yaxın Şərqdə islamçı siyasi fikrin zəifdiyinin göstəricisidir. Türkiyədə mühafizəkar islamçılar üçün hər şey itirilməyib, daha yaxşı çalışıb 2023-cü ilə daha yaxşı hazırlıqlı getmək olar. Amma bu, artıq siyasi partiyaların və cəmiyyətin seçimi olacaq.

Ümumilikdə, 23 iyun təkcə bir şəhərin deyil, bütövlükdə Türkiyə cəmiyyətinin özünə, öz seçiminə inamının möhkəmlənməsi, Türkiyənin demokratik imicinin qorunması istiqamətində müsbət addım oldu. Bu isə qarşıda hər şeyin daha gözəl olacağına olan ümidləri artırır.

**İyunun 24-də İlahiyyat İnstitutunda yaz semestri imtahan sessiyası keçirilib. İmtahan prosesini AİI rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri müşahidə edib. Müşahidəçilər imtahan keçirilən auditoriyalarda olaraq ayrı-ayrı fənlər üzrə yay imtahan sessiyasını müşahidə etdi. Şura üzvləri və KİV təmsilçiləri, həmçinin tələbələrin sessiyaya hazırlığı, sualların tərtibatı, imtahan prosesi barədə müəyyən söhbətlər apardılar.**

# İlahiyyat İnstitutu fəaliyyətini genişləndirir

## Ölkənin birinci dövlət dini təhsil ocağında yay imtahan sessiyası başladı; ali məktəblər arasında sorğuda AİI birinci yerə çıxıb









AİI rektoru Ceyhun Məmmədov bildirdi ki, 2018-2019-cu tədris ilinin yaz semestri imtahanlarının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək, yarana biləcək mənfi halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun təşkili üçün Operativ Qərargah yaradılıb.

Rektor bildirdi ki, imtahanlar bir qayda olaraq yazılı, zərurət yarandığı hallarda şifahi formada keçirilir. Müşahidə qrupu olaraq imtahan prosesini izləyən təhsil üzrə ekspertlər, professor Şahlar Əsgərov, Nadir İsrafilov, Kamran Əsədov, "Trend" İnformasiya Agentliyi baş direktorunun müavini Arzu Nağıyev, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Modern.az saytının rəhbəri Elşad Eyvazlı, "Azadinforum" Agentliyinin baş redaktoru Niyaz Niftiyev, jurnalist Seymur Verdizadə müəllimlərə imtahanla bağlı bəzi suallarl verdilər. Quran dərsindən imtahan verən bir neçə tələbə isə müqəddəs kitabdan bir neçə ayə oxudular.

Müşahidəçilərə məlumat verildi ki, imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili məqsədilə institut rəhbərliyi tərəfindən xüsusi komissiya yaradılıb, imtahanlara nəzarət müəllim-koordinatorlar tərəfindən həyata keçirilir. İmtahanlar 2 gündən az olmayan fasilə ilə keçirilir və imtahana 2 saat vaxt ayrılır.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu 2018-ci ilin 9 fevralında prezident sərəncamı ilə təsis olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində yaradılan AİI Azərbaycanda dövlət tərəfindən yaradılan ilk ali təhsil ocağıdır. İnstituta ilk qəbul 2018-ci ildə həyata keçirilib. 60 qəbul yerindən islamşünaslıq ixtisasına 35, dinşünaslıq ixtisasına isə 25 nəfər qəbul olunub. Hazırda institutda BDU-nun İlahiyyat fakültəsindən qalan və Bakı İslam Universitetindən köçürülmüş tələbələrlə birlikdə 109 nəfər təhsil alır. Rektor bildirdi ki, bu ildən qəbul yerlərinin sayı 72 nəfərə çatdırılacaq.

Azərbaycan İlahiyyat İnstitutunda ilahiyyat, din elmləri, Quran, hədis, təfsir kimi dərslərlə yanaşı, sosiologiya, tarix kimi ictimai elmlər də tədris olunur. Bu isə gələcəkdə savadlı dinşünas kadrların hazırlanması üçün baza deməkdir. Rektor onu da bildirdi ki, bu ildən tələbələrin bir qisminin Türkiyədə yaya məktəblərində ilahiyyat kurslarına qatılması, eləcə də digər ölkələrin müvafiq ali təhsil ocaqları ilə əməkdaşlıq müqavilələri tələbələrin gələcəkdə magistr təhsilinin bir ilini Azərbaycanda ikinci ilini xarici nüfuzlu təhsil ocaqlarında davam etdirməsi, ikili diplomların verilməsi kimi işlər nəzərdə tutulub. C.Məmmədov onu da bildirdi ki, müvafiq dövlət qurumlarında kadr tələbatı var, bu isə o deməkdir ki, ali təhsil alan və fərqlənən tələbələrin gələcəkdə dövlət və ictimai qurumlarda işlə təmin olunmasının yolu açılır.

O da bildirildi ki, abituriyentlərin İlahiyyat İnstitutu ilə yaxından tanış olması üçün keçən il olduğu kimi, bu il də iyunun sonu, iyulun əvvəllərində AİI-də "açıq qapı" günləri keçiriləcək. Bundan başqa, AİI rəhbərliyi son aylarda bir neçə rayonda görüşlər keçirərək institutun tanıdılmasını təşkil edib. O da məlum oldu ki, institut yaxın aylarda dövlət tərəfindən ayrılmış yeni və daha geniş binaya köçəcək.

Ötən gün həmçinin AİI-də mektebgushesi.az saytının ali məktəblər arasında keçirdiyi ənənəvi sorğunun nəticələrinə həsr olunmuş təqdimat mərasimi keçirilib. Tədbirdə qeyd olunub ki, ənənəvi olaraq hər il keçirilən sorğu 10 gün davam edib. 40 ali tədris müəssisəsi arasında keçirilən "Abituriyent olaraq təhsilin və idarəetmənin keyfiyyətinə görə hansı universiteti seçərdiniz?" nominasiyalı virtual sorğuda, ümumilikdə, 4 420 respondent iştirak edib. Azərbaycan İlahiyyat İnstitutu 1022 səslə sorğunun qalibi olub.

Saytın rəhbəri Məzahir Məmmədli bildirib ki, sorğuda obyektivlik qorunub, bir İP-dən yalnız bir səs vermək mümkün olub. İkinci yerdə 996 səslə Lənkəran Dövlət Universiteti, üçüncü yerdə 505 səslə Bakı Dövlət Universiteti qərarlaşıb. Təqdimat mərasimində sorğunun qalibi mükafatı AİI-nin rektoru Ceyhun Məmmədova təqdim olunub. Təhsil eksperti Şahlar Əsgərov bildirib ki, yeni yaranmış İlahiyyat İnstitutunun birinci yerə çıxması AİI-nin ictimaiyyətlə əlaqələrə xüsusi önəm verməsi, institut rəhbərliyinin bölgələrdə keçirdiyi görüşlərin nəticəsidir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019

# Azərbaycanda minimum istehlak səbətinin tərkibinə yenidən baxıla bilər

## Ekspert: "Yaşayış minimumu kimi, minimum istehlak səbəti də hər il yenilənməlidir"

**Azərbaycanda ilk dəfədir ki, minimum əmək haqqı məbləği ölkə üzrə yaşayış minimumunu üstələyəcək. Bu il üçün təsdiq olunan yaşayış minimumu 180 manat olduğu halda, sentyabrın 1-dən minimum əmək haqqı 250 manat olacaq. Oktyabrın 1-dən əmək pensiyasının minimum məbləği 200 manata qaldırıldıqdan sonra isə minimum pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələmiş olacaq.**



Bu artımlardan sonra Azərbaycanda yaşayış minimumunun müəyyənləşməsində əsas rol oynayan minimum istehlak səbətinin tərkibinə baxılması məsələsi gündəmə gəlib.

Qeyd edək ki, qanunvericiliyə əsasən minimum istehlak səbətinin tərkibinə 3 ildə bir dəfə baxılmalıdır. Axırıncı dəfə 9 illik fasilədən sonra 2014-cü ildə Nazirlər Kabineti tərəfindən səbətin tərkibinə baxılaraq, bir sıra dəyişikliklər edilib.

Dəyişikliklərdən sonra Azərbaycanın minimum istehlak səbətində 40-dan artıq qida məhsulu var. İnkişaf etmiş ölkələrdə isə bu səbətdəki qida məhsullarının sayı 100 ətrafında dəyişir. Yaxud Azərbaycanda indiki normativlə kartof istehlakı ay ərzində 4 kq edir. Belarusda bu göstərici 11 kq, Qazaxıstanda və Moldovada 10 kq təşkil edir. Bostan-tərəvəz məhsullarında ölkəmiz Qazaxıstan, Belarus, Moldova, Qırğızıstan, Özbəkistan və Rusiyadan geri qalır. Bu ölkələrdə bostan-tərəvəz məhsullarının illik istehlakı 110-130 kq-a qədər dəyişir.

Ümumilikdə Azərbaycanda 3 istehlak səbətində minimum istehlak üçün nəzərdə tutulan ərzaq, qeyri-ərzaq və xidmətlərin sayı 150 çeşid ətrafındadır. İnkişaf etmiş ölkələrdə həmin göstərici 300-350 civarındadır. Maraqlıdır ki, Nazirlər Kabinetinin istehlak səbətinin strukturu ilə bağlı qərarında mal qruplarının əmtəə strukturu açıqlanmır. Məsələn, "meyvə və giləmeyvə" üzrə illik istehlak bir nəfər üçün 38 kq müəyyən edilib. Amma konkret meyvə və giləmeyvə növlərinin adı və norması ilə bağlı qərarın əlavəsi ictimaiyyətdən gizli saxlanır.

Ekspertlərin fikrincə, başqa bir problem qida normalarının səviyyəsi ilə bağlıdır. Belə ki, bir nəfər üçün ət və ət istehlakı qonşu Rusiyada 58.6 kq, Azərbaycanda 32.9 kq, meyvə və giləmeyvə istehlakı Rusiyada 60 kq, Azərbaycanda 38 kq, balıq və balıq məhsulları Rusiyada 18.5 kq, Azərbaycanda 7.7 kq minimum norma kimi təsdiqlənib.

**Bütün bunları nəzərə alaraq müstəqil ekspertlər minimum istehlak səbətinin tərkibinə həm məhsulların sayı, həm də normaları baxımından yenidən baxılmasını zəruri hesab edirlər. İqtisadçı-ekspert Pərviz Heydərovun "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycanda yaşayış minimumu hər il dövlət büdcəsinin layihəsi ilə birlikdə tərtib edilərək təsdiqlənir:** "Bu il üçün təsdiqlənən məbləğ 180 manatdır. Gələn il üçün yəqin ki, bu məbləğ bir qədər artırılacaq. Minimum istehlak səbətinin tərkibinə qanunvericiliyə əsasən 3 ildən bir baxılmalıdır. Təcrübədən görürük ki, reallıqda daha gec-gec baxılır. Düşünürəm ki, ölkə üzrə yaşayış minimumunun müəyyənləşməsində əsas rol oynayan minimum istehlak səbətinin tərkibinə hər il baxılmalıdır. İqtisadiyyat inkişaf edirsə, əhalinin gəlirləri artırsa, deməli, istehlak davranışları, istehlakçı zövqü də dəyişir. Beş manat gəlirlər formalaşan istehlak səbəti ilə 15 manatlıq gəlirlə formalaşan arasında fərq olmaya bilməz. Bu baxımdan, dəyişikliklərin minimum istehlak səbətində əksini tapması lazımdır".

**Ekspert hesab edir ki, minimum istehlak səbətinin tərkibinə yenidən baxılması ilə yanaşı, bir sıra sosial müavinətlərin müəyyənləşməsi üçün istifadə edilən ehtiyac meyarı anlayışı da ləğv olunmalıdır:** "Bu gün ölkədə fiziki mövcudiyyət üçün zəruri olan minimum məhsul və xidmətlərin dəyərini müəyyənləşdirən yaşayış minimumu varsa, ondan aşağı məbləği əhatə edən ehtiyac meyarına nə ehtiyac qalır? Anlayıram, müəyyən dövr üçün dövlətin maliyyə vəziyyəti sosial müavinətlərin yaşayış minimumu əsasında müəyyənləşməsinə imkan vermirdi. Buna görə də ehtiyac meyarı anlayışından istifadə olundu. Amma artıq sosial paket həyata keçirib, ölkənin əldə etdiyi əlavə gəlirləri əhalinin sosial təminatının gücləndirilməsinə xərcləyə biliriksə, deməli, ehtiyac meyarından da imtina etməliyik".

**Qeyd edək ki, "Report"un sualını cavablandıran əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, minimum pensiyaların və əmək haqlarının artırılması, bir sıra sahələrdə ciddi artım, yaşayış minimumu standartlarına və istehlak səbətinin tərkibinə yenidən baxılması zərurətini ortaya çıxaracaq. Onun sözlərinə görə, Azərbaycan Prezidentinin həm iqtisadi, həm sosial sahələrdə həyata keçirdiyi islahatlar kompleks xarakter daşıyır. Nazir müavini qeyd edib ki, əhalinin sosial müdafiəsi ilə bağlı bütün məsələlərə hökumət tərəfindən baxılacaq:** "Azərbaycanda yaşayış minimumu haqqında qanun qəbul edilib. Qanunun tələblərinə görə, bir sıra yaşayış minimumu ilə bağlı standartlar, minimum əmək haqqının, pensiyaların və dövlət sosial yardımının məbləği yaşayış minimumu ilə əlaqəlidir. Hər il yaşayış minimumunu Milli Məclis tərəfindən təsdiq olunur".

**A.Əliyev vurğulayıb ki, mövcud qanunvericiliyə görə, istehlak səbətinin tərkibinə hər üç ildən bir dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə yenidən baxılır.**

"Bu məsələdə iki parametr əsas götürülür: Birincisi, səbətin çeşidi, yəni səbətə daxil olan məhsulların insanın fiziki tələbatını ödəməsi. İkincisi, səbətə daxil olan məhsulların dəyərinin müəyyən olunması. Əlbəttə, hökumətdə bu istiqamətdə işlər görülür. Zərurət yaranacağı halda, yaşayış minimumu məbləğinə və istehlak səbətinin dəyərinə yenidən baxılacaq".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Dünyada QİÇS virusu daşıyıcıları artır - səbəb

## Qurum rəsmisi: "Bizim vəzifəmiz təkcə infeksiyanı aşkarlamaq yox, həm də həmin şəxsləri müalicəyə cəlb etməkdir..."

**Bu ilin mayında nikaha daxil olan cütlüklər arasında 4 şəxsdə QİÇS aşkarlanıb. Ümumilikdə rəsmi statistikaya görə, 2019-cu ilin birinci rübündə müayinə zamanı 172 nəfərdə QİÇS (İİV) virusu aşkarlanıb. Onlardan 167-si yerli vətəndaş, 5-i əcnəbidir. Yerli vətəndaşlardan 114-ü kişi, 53-ü isə qadındır.**




Beləliklə, hər dəfə bu barədə statistika açıqlananda cəmiyyətdə bir xof yaranır. Bu xəstəliyin ölkəmizdə getdikcə daha geniş yayılması barədə iddialar irəli sürülür. Xəstəliyin yayılması ilə bağlı səbəblərdən biri isə Rusiya göstərilir. Belə ki, rəsmi məlumata görə, hazırda Rusiya əhalisinin 1 faizi bu infeksiyaya yoluxub. Bu da bir milyon adamdan çox deməkdir. Məlum məsələdir ki, hazırda qonşu Rusiya dövlətində çoxsaylı azərbaycanlı yaşayır ki, onların da əksəriyyəti tez-tez ölkəyə səfər edir, miqrasiya durumunda olur və nəticədə müxtəlif xəstəliklər daşına bilir. Ekspertlər digər səbəb kimi narkotik vasitə istifadəçilərinin artmasını göstərirlər.

**Mövzu ilə bağlı QİÇS-lə Mübarizə Mərkəzinin rəsmisi Natiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın İİV-infeksiyanın ən az yayıldığı ölkələr sırasında olduğunu dedi:** "Regional bölgü üzrə Şərqi Avropa və Mərkəzi Asiyada yer tutan Azərbaycan hər 100 min nəfərə düşən QİÇS virusu infeksiyasına görə ən aşağı göstəriciyə malikdir. Belə ki, ölkəmizdə bu problemə hər 100 min şəxsdən 5,8-də rast gəlmək mümkündür. Azərbaycanın dünyada İİV infeksiyasının ən az yayıldığı ölkələr sırasında yer tutduğu Dünya Səhiyyə Təşkilatı, BMT-nin İİV Proqramı və Xəstəliklərə Nəzarət Mərkəzinin Avropa bürosunun hesabatında da öz əksini tapıb. Ölkəmizdə bu infeksiya əsasən risk qrupları arasında geniş yayılıb. Onlar narkotik istifadəçiləri, seks işçiləri və məhbuslardır".

**Qurum rəsmisinin sözlərinə görə, Azərbaycanda QİÇS virusu ilk də 1987-ci ildə, Neft Akademiyasında təhsil alan afrikalı tələbədə aşkarlanıb. O vaxtdan bu günə qədər 6395 nəfər bu infeksiyadan rəsmi qeydiyyatdadır:** "Həmin şəxslərdən 992 nəfəri dünyasını dəyişib. Qeyd edim ki, virus aşkarlanan şəxslərin 70 faizi kişi, digər qismi isə qadındır. Bizim qurumumuzun vəzifəsi təkcə bu infeksiyanı aşkarlamaq deyil, həm də həmin şəxsləri müalicəyə cəlb etməkdir. Onları dərman preparatları ilə dövlət pulsuz təmin edir. Dərman preparatlarını 6 regionda fəaliyyət göstərən mərkəzlərimizdə almaq mümkündür. Yeni bölgələrdə yaşayan şəxslər artıq Bakıya gəlmədən yaşadığı əraziyə yaxın mərkəzlərimizdən dərman götürə, yaxud həmin mərkəzlərdə stansionar müalicəyə cəlb oluna bilir".

**Həmsöhbətimiz onu da dedi ki, QİÇS-lə mübarizə məqsədilə aparılan müayinə çox bahalı müalicədir:** "Ümumi müalicə (dərmanlarla birgə) aylıq 1000-1200 ABŞ dolları arasında dəyişməkdədir. Bir çox, xüsusən də Avropa ölkələrində bu müalicə dövlət hesabına və ya icbari sığorta əsasında aparılır. Xəstəlik əsasən qan və cinsi yolla yayılır. İnsanlar bu infeksiyadan gigiyenik qaydalara əməl edərək uzaq ola bilərlər. Məsələn, başqasının ülgücündən istifadə etmək olmaz, yalnız birdəfəlik ülgüclərdən istifadə etmək lazımdır. Bu infeksiya içərisində virus olan qanın və ya qan preparatlarının sağlam adama köçürülməsi zamanı da ötürülə bilir. Həmçinin xəstəlik anadan bətndaxili dölə ötürülə bilər. Bunun üçün mərkəzimiz müəyyən profilaktik tədbirlər həyata keçirir. Çox sevindirici haldır ki, artıq viruslu analar sağlam uşaq dünyaya gətirə bilir. Bu günə qədər 590-dan çox bu virusa yoluxmuş hamilə qadın sağlam uşaq dünyaya gətirib. Xəstəlik anadan uşağa süd vasitəsilə də keçə bilir. Buna görə də anaları xəbərdar edirik ki, qətiyyən körpələrinə süd verməsinlər".

**Qurum rəsmisi artıq 2012-ci ildən bu yana 50-dən çox Könüllü Müayinə və Məsləhət məntəqələrinin açıldığını söylədi:** "Bu mərkəzlərə müraciət edən hər bir şəxs ekspress-test müayinəsindən keçə bilər. Həmin testlər 10-15 dəqiqə ərzində aparılır. Əgər bundan əvvəl diaqnoz 3-6 ay ərzində qoyulurdusa, hazırda yoluxmanı 4-cü həftədə müəyyən etmək olur. Qeyd edim ki, bu, dünyada tətbiq edilən ən son üsuldur ki, bizim ölkədə də tətbiq edilir. Mərkəzlərimizdə müayinədən əvvəl və müayinədən sonra məsləhətləşmələr aparılır, QİÇS infeksiyası və ondan qorunma haqqında məlumat verilir, informasiya materialları və qoruyucu vasitələr paylanır".

Hazırda dünyada bu virusa yoluxanların sayı artmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində infeksiyaya yoluxanların təxminən üçdə biri, hətta 50 faizi xəstəliyindən xəbərsizdir. Hesablamalara görə, hər il dünyada bu virusa yoluxanların sayı 2 dəfə artır.

Ekspertlər bildirir ki, QİÇS hava, əşya, qida, su ilə keçmir. Bəziləri bu xəstəliyin ağcaqanadların sancması nəticəsində çoxaldığını güman edir. Lakin mütəxəssislər qətiyyətlə bildirir ki, ağcaqanadların sancması və xəstə insanın qanını sağlama ötürməsi ilə yoluxmanın baş verməsi elmdə sübut olunmayıb. Bu barədə artıq 1990-cı illərdən təcrübələr aparılıb.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 134 (7204) 25 iyun 2019

# Londonda Zamirə Hacıyevanın məhkəmə prosesi keçirilir




## Aeroportda gömrükçüləri aldatmaq üçün plan quran ər-arvad hakim qarşısında

### Qadın ayaqyolunda çadra geyinərək, çamadanı dəhlizdən keçirmək istəyib, ər isə diqqəti yayındırmaq üçün yerə yıxılaraq özünü xəstəliyə vurub

**Dubaydan telefon gətirən ər-arvad hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qaçaqmalçılıqda təqsirləndirilən Nurlan Nəsibov və Layə Yaqubovanın cinayət işi üzrə məhkəmə iclası başlayıb.

Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Məlum olub ki, təqsirləndirilən şəxslər ər-arvaddır. Məhkəmənin baxış iclası iyunun 28-nə təyin edilib. Onlar qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə xeyli sayda telefon gətirmək istəyiblər.

Xatırladaq ki, Dubay-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşı Yaqubova Layə Cümşüd qızı həyat yoldaşı Nəsibov Nurlan Vəfadar oğlu ilə birlikdə Heydər Əliyev Beynəlxalq Aeroportunda sərhəd nəzarətini keçdikdən sonra əl yükü olan çamadanı lentin yanında qoyaraq ayaqyoluna daxil olub və orada əyninə çadra geyinərək lentin yanında qoyduğu çamadanı götürüb və "Yaşıl Kanal"a doğru hərəkət edib.

L.Yaqubova gömrük əməkdaşı tərəfindən saxlanılaraq "Qırmızı Kanal"a yönləndirilib və bu zaman həyat yoldaşının çamadanındakı qaçaqmal predmetlərinin aşkar ediləcəyini anlayan N.Nəsibov diqqəti yayındırmaq məqsədilə yerə yıxılaraq özünü pis hiss etdiyini bildirib.

Gömrük əməkdaşlarının diqqətinin N.Nəsibova yönəldiyini görən L.Yaqubova "Qırmızı Kanal"a daxil olmadan yenidən çamadanını lentin yanına qoyaraq ayaqyolunda çadrasını çıxarıb və əl yükü olmadan "Yaşıl Kanal" buraxılış sistemi vasitəsilə gömrük zonasını tərk etməyə cəhd göstərib. Gömrükçülər tərəfindən saxlanılaraq yoxlama otağına dəvət edilən L.Yaqubovanın hava limanının zalında qoyaraq gömrük nəzarətindən keçmək istədiyi əl yükü olan çamadanın içərisindən 18 ədəd müxtəlif markalı mobil telefon aşkarlanıb.

Onlara qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) maddəsi ilə ittiham elan edilib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

### Sabiq bankirin xanımı Britaniyada xərclədiyi milyonların mənbəyini açıqlamalıdır, yoxsa...

**Azərbaycan Beynəlxalq Bankının sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı, 55 yaşlı Zamirə Hacıyevanın məhkəməsi olub.**



APA-nın London bürosunun verdiyi xəbərə görə, "Westminster Magistrates" məhkəməsində keçirilən iclas iki saat yarımdan çox çəkib.

Məhkəmə prosesində Cahangir Hacıyevin 29-70 min dollar arası maaş aldığı xatırladılıb. Bu məbləğdə maaş qazanan birinin ailə üzvünün bu qədər yüksək vəsaiti ancaq qanunsuz yollarla əldə edə biləcəyi vurğulanıb.

Qeyd edilib ki, Zamirə Hacıyeva Azərbaycan Beynəlxalq Bankı tərəfindən 28 kart istifadə edib, bu kartlardan 10-u şəxsən Zamirə Hacıyevanın adına açılıb. Digər kartlardan bəziləri isə ərinin şəxsi mühafizəçisinin adınadır. Zamirə Hacıyeva özünün adına olan kartlardan 14.5 -15.5 milyon funt sterlinq məbləğində pul xərcləyib, özü və ailəsi üçün bahalı təyyarə bileti, cavahirat əşyaları alıb, üç uşağının təhsil xərclərini ödəyib, gözəllik mərkəzlərində bu puldan istifadə edib. Zamirə Hacıyeva bu 10 bank kartından 13 milyon 500 min dollar, 2 milyon 790 min avro və 4 milyon 600 min manat xərcləyib.

Onun əri Cahangir Hacıyevin bu məbləğdə pulunun olmadığı, o bu kartları alarkən lazımi sənədlərin təqdim edilmədiyi deyilib.

Bildirilib ki, 2009-2015-ci illərdə Zamirə Hacıyevaya bank tərəfindən faizsiz kreditlər verilib və bu zaman o, heç bir sənəd təqdim etməyib. Ümumilikdə çirkli pul yumaq, bankın pullarının mənimsənilməsi səbəbindən Azərbaycanda 37 nəfərlik "kriminal qrup"un bu işdə adının hallandığı bildirilib. Vurğulanıb ki, bu kriminal qrup ümumilikdə 97 milyon dollar mənimsəyib.

Zamirə Hacıyevanın vəkili isə gizli şahidlə bağlı hakimə müraciət edib. Belə ki, o, şahidin adının təhlükəsizlik baxımından gizli tutulmasını xahiş edib.

Qeyd edək ki, Zamirə Hacıyeva ilk dəfədir ki, özünün məhkəmə prosesində iştirak edir.

55 yaşlı Z.Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (Unexplained wealth orders,UWO)çərçivəsində məhkəmə qarşısına çıxır . Bu sərəncama əsasən o, var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır.

Xatırladaq ki, Zamirə Hacıyeva 2014-cü ildən Azərbaycana gəlməyib. O, 11.5 milyon funt sterlinq dəyərində "Harrods"a yaxın məsafədə üç ardıcıl evə sahibdir. Onun ən maraqlı xərcləri arasında "Disney"in eksklüziv mağazasında "Bibbidi Bobbidi Boo" kassasında 99,000 funt sterlinq dəyərində etdiyi ödəniş olub.

Məhkəmə prosesi davam edəcək.

❑ **Aytən ABBASLI,**
**Apa.az**


## Yay tətilində xaricə üz tutanlar üçün "Nar"dan sərfəli rominq paketləri




**Hər zaman abunəçilərinin dinamik tələblərinə cavab verən mobil operator "Nar", yay tətilini xaricdə keçirən müştəriləri üçün sərfəli rominq paketləri təqdim edir. Müxtəlif ehtiyaclara uyğun sərfəli qiymətə təqdim olunan 4 rominq paketindən yararlanmaq üçün səfərə çıxmazdan əvvəl rominq paketlərindən birini sifariş etmək kifayətdir.**

Təqdim olunan "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq lazımdır. "Roaming 9", "Roaming 15" paketlərinin istifadə müddəti 5, "Roaming 18" və "Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.


**Elan**

**Eminov Qasım Abdulla oğlunun adına olan Ağdaş rayonu Əmirmahmud kəndində JN 0020 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 134 (7304) 25 iyun 2019

# AVM və əyləncə mərkəzlərində təhlükəsizliyi necə qorumalı...

## Sülhəddin Əkbər: "Bu kimi yerlərdə təhlükəsizlik məsələsi məkanın qoruyucuları ilə yanaşı, xüsusi orqanların da nəzarətində olmalıdır"

**Bu günlərdə Bakıda "Megafun" Əyləncə Mərkəzində baş verən hadisə ictimaiyyətdə ciddi rezonans doğurdu. Nədən ki, hər birimiz əyləncə mərkəzlərinə gedirik, bu cür olaylar hər birimizin başına gələ bilər.**

Bakı Şəhər Polis İdarəsindən verilən məlumata görə, əyləncə mərkəzində ailə tədbirlərinin birində asılmış helium şarları animatorların ehtiyatsızlığı ucbatından partlayıb və hadisə baş verib. Baş verən hadisə zamanı 2 nəfər azyaşlı və 4 nəfər böyük olmaqla, 6 nəfər yüngül bədən xəsarətləri alıb. Sevindirici haldır ki, xəsarət alanların həyatları üçün təhlükə olmadığı bildirilir.

Hadisədə xəsarət alanlar arasında müğənni Ayan Babakişiyeva və qızı da olub. Müğənni bu barədə sosial şəbəkədə məlumat paylaşıb. O, hadisənin günahını mərkəzə gələn animatorlarda görüb:

"Bugünkü yanğında mən və ailəm də orada idik. Ən yaxın rəfiqəmin özəl günü idi. Mən həyatımda ən dəhşətli günü yaşayıram. O partlayış nə idi? Selena, anam, mən və ən yaxınlarım xəsarət alıb. Sadəcə, bir möcüzə qurtardı hər kəsi. Restoranın FHN sularının açılması... Günah ora gələn animatorlarda oldu".

Qeyd edək ki, bundan əvvəl də müxtəlif əyləncə mərkəzlərində oxşar hadisələrin baş verməsinin şahidi olmuşuq. Məsələn, bir neçə il öncə Nabrandakı əyləncə mərkəzində 5 yaşlı uşaq su hovuzunda su nasosuna ilişərək, ayağını itirmişdi. Ötən ilin iyulunda isə Novxanıda yerləşən "Aqua Park" əyləncə mərkəzində bədbəxt hadisə baş vermişdi. Zamiq Nağıyev adlı şəxs hovuzda çimərkən attraksiondan sürüşən bir nəfərlə toqquşmuşdu. Zərbədən huşunu itirən Z.Nağıyevi hovuzdan çıxarsalar da, onun həyatını xilas etmək mümkün olmamışdı.



Eləcə də dünyanın bir çox ölkələrində böyük əyləncə mərkəzlərində bu cür hadisələr qaçılmaz olaraq qalır.

Məsələn, ötən illərdə Fransada iri sapand formasında olan attraksion içərisindəki iki nəfəri göyə atmaq ərəfəsində iplərindən biri qırılmışdı. Xoşbəxtlikdən qəza attraksion havaya qalxmadan öncə baş verdiyi üçün içərisində olan şəxslər ciddi xəsarət almayıblar.

Digər buna bənzər hadisə zamanı isə attraksionda olanlar dirəyə çırpılaraq, 1 saata yaxın göydə asılı qalmışdılar.

Nyu-Yorkda əyri relslər üzərində hərəkət edən və sürətli qatarı xatırladan məşhur "roller coaster" attraksionunun qəza törətməsi nəticəsində 1 nəfər yıxılaraq, ağır bədən xəsarətləri almışdı. Güclü təhlükəsizlik tədbirlərinə rəğmən baş verən qəzanın qarşısını almaq mümkün olmamışdı.

Yaponiyada isə bu cür attraksionda baş verən qəza zamanı 19 nəfər yaralanmış, bir nəfər dünyasını dəyişmişdi.

İspaniyanın paytaxtı Maddriddə bu cür hadisə zamanı 33 nəfər yaralanmışdı.

ABŞ-ın Ohayo əyalətindəki əyləncə mərkəzində sağa-sola hərəkət edərək fırlanan attraksionlardan birinin oturacaqlarının qırılması nəticəsində bir nəfər 15 metr hündürlükdən düşərək dünyasını dəyişmiş, 7 nəfər isə xəsarət almışdı. Hadisə ilə bağlı rəsmilər bildirmişdi ki, attraksion lazımı qaydada yoxlanılıbmış və heç bir problemi olmayıb, hadisə təsadüf nəticəsində baş verib.

Təkcə əyləncə mərkəzlərində deyil, alış-veriş mərkəzlərində (AVM) də xoşagəlməz olaylar, yanğınlar tez-tez baş verir.

Bəs AVM və əyləncə mərkəzlərində təhlükəsizlik necə qorunur və ya qorunmalıdır?

Mütəxəssislər qeyd edir ki, Bakıdakı əyləncə mərkəzlərində təhlükəsizlik tədbirləri görülsə də, vəziyyət arzuolunan səviyyədə deyil. Xüsusən də bölgələrdə bu məsələ problem olaraq qalır.

**Milli təhlükəsizlik nazirinin birinci müavini vəzifəsində çalışmış Sülhəddin Əkbər "Yeni Müsavat"a bu barədə danışıb. Ekspert qeyd edib ki, bütün əyləncə mərkəzlərində təhlükəsizlik tədbirləri yüksək səviyyədə görülməli və buna konkret qurumlar, eləcə də mərkəzin öz əməkdaşları, rəhbərliyi nəzarət etməlidir:**

"Unutmaq olmaz ki, Azərbaycan müharibə şəraitində yaşayır və yaxın tarixində terrorla üz-üzə qalmış ölkədir. İkinci bir tərəfdən, regional vəziyyəti də nəzərə almaq lazımdır. Həmçinin Azərbaycanda xarici ölkə kəşfiyyatları ilə aktiv fəaliyyət göstərənlərin olması da diqqətdən yayınmamalıdır.

İstənilən ticarət və əyləncə mərkəzlərində bütün təhlükəsizlik tədbirləri həyata keçirilməli, xüsusi orqanlar, o cümlədən ictimai təhlükəsizlik əməkdaşları, həmçinin mərkəzin öz işçiləri, mühafizəçilər təhlükəsizliklə bağlı bütün qaydalara nəzarət etməlidirlər".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Putin rusların yayını "qara gətirdi"

## Gürcüstana yolu kəsilən turistlər Azərbaycana gələcəkmi - ekspertlər danışır...

**Putin administrasiyası hansı dövlətlə münasibətlərdə gərginlik yaşayırsa, bunun heyfini çıxmaq üçün maraqlı üsula əl atır. O, rusları həmin ölkəyə getməməyə çağırır. Bununla həm də öz vətəndaşlarının - rusiyalı turistlərin planını pozur, yayını "qara gətirir".**

2015-ci ildə təyyarə qalmaqalı ilə bağlı Rusiya-Türkiyə əlaqələrinin korlanması ucbatından prezident Vladimir Putin rus turistlərin İstanbul, Antalya, Bodrum, Marmarisdən ayağını kəsmişdi.

Bir yandan rusların sevimli kurort bölgələrinə gedişi əngəllənirdi və siyasətə görə turistin öz istirahət hüququ məhdudlaşırdı, bir tərəfdən də guya bununla həmin ölkənin iqtisadiyyatına zərbə vurmuş olurdu.

Hətta Putin Türkiyə mallarının Rusiyaya embarqosu barədə fərman imzalamışdı. Bu dəfə də Rusiya prezidenti eyni "sanksiya"nı Gürcüstana qarşı tətbiq edib.

Tiflis parlamentində rusiyalı deputatın gürcü spikerin yerində oturmasına etiraz olaraq cəmiyyətin ayağa qalxması, Moskva-Tiflis əlaqələrinin gərginləşməsi yenə rus turistlərin "gününü göy əskiyə bükub".



Belə ki, Putin Gürcüstandakı bütün Rusiya vətəndaşlarının ölkəyə qaytarılması ilə bağlı fərman imzalayıb. Rusiya Federal Turizm Agentliyi ("Rosturizm") isə hazırda Gürcüstanda təxminən 1500 rus turistin olduğunu açıqlayıb.

Bu rəqəm Gürcüstanda olan Rusiya vətəndaşlarının yox, turoperatorlar vasitəsilə qonşu ölkəyə səfər edən rusların sayını göstərir.

"Rosturizm" həmçinin rusiyalıların 8 iyula qədər plan əsasında Rusiyaya qaytarılacaqlarını bəyan edib.

Putinin digər fərmanına görə, iyulun 8-dən etibarən Rusiya aviaşirkətlərinə öz vətəndaşlarını Gürcüstana daşımaq qadağan edilib. Qadağanın müvəqqəti xarakter daşıdığı bildirilib.

Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski isə analoqsuz bir açıqlama verib. Onun sözlərinə görə, vətəndaşlığını dəyişmək istəyən bütün Gürcüstan vətəndaşlarına Rusiya pasportları vermək lazımdır.

"Niyə biz Gürcüstana pul xərcləməliyik? Kim özünü Rusiyaya münasibətdə belə aparır? Bəli, bu fəaliyyətin drijorları xaricdə ola bilər, amma hücumları Gürcüstanın sıravi vətəndaşları həyata keçirir.

Moskva və Tiflis münasibətlərində problemlər I Pavelin səhvlərinin nəticəsidir. Məhz o, müşavirlərinin təklifi ilə Gürcüstanı Türkiyədən xilas etmək üçün Rusiya imperiyasının tərkibinə qatmaq haqqında qərar qəbul etdi. Əgər bu baş verməsəydi, bu gün Rusiya Türkiyə ilə ümumi sərhədə sahib olar, gürcülər isə rusların içində assimilyasiyaya məruz qalardı", - deyə bildirib.

**Politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a bildirdi ki, Putin qisasçı adamdır:** "Gürcüstandakı absurd skandalı sülh yolu ilə də həll etmək olardı. Amma görürsünüz ki, belə mənasız yollar seçir. Çalışır ki, Gürcüstan, Azərbaycan, Türkiyə ilə hər hansı problem yaranarda həll etməsin, zərbə vursun. Ancaq rus turist istəsə Moskvadan Tiflisə uçmayacaq, Kiyevdən, yaxud Bakıdan ora gedəcək".

**H.Hacızadə xatırlatdı ki, Rusiya vaxtilə Gürcüstanın kənd təsərrüfatı mallarına, xüsusən çaxırına embarqo qoymuşdu:** "Ancaq gürcülər yeni yollar tapdılar, daha əlverişli bazara çıxdılar. İndi gürcü çaxırları Avropa bazarlarında satılır. Bu günə kimi turistlərin 30 faizi Rusiyadan idisə, indi avropalı turist daha da çoxalacaq. Üstəlik, Avropa Birliyi ölkəsidir, Qərb ölkələrindən turistlər Gürcüstana vizasız səfər edəcəklər.

Yenə belə mənasız qərarlar, qadağalar Putinin öz ağlının məhsuludur. Azərbaycandan narazı qalır, pomidorumuzu geri qaytarır, Ermənistanla problemi yaranır, Paşinyanın pomidorunu qaytarır. Ancaq bu, yol deyil".

**Siyasi ekspert Elxan Şahinoğlu yazıb ki, Gürcüstana ən çox turist Rusiyadan gəlir:** "Bu, Gürcüstan büdcəsi üçün kiçik rəqəm deyil. Kreml ayrıca Gürcüstan mallarının Rusiyaya ixracını da çətinləşdirə bilər".

**Siyasi şərhçi Azər Rəşidoğlu isə feysbuk hesabında yazıb ki, Gürcüstan Rusiya ilə rəsmən boşanır:** "Ermənistan Moskvanın ayağı altından qaçır. Türkiyənin də tezliklə Kremlə qarşı çıxacağını ehtimal edirəm.

Moskva Kiyevlə bacarmır, İrəvanla bacarmır, Tiflislə bacarmır. Ankara ilə də bacarmayacaq. Azərbaycanın maraqları da avro inteqrasiya xəttini tutmağı tələb edir".

**"Gürcüstan QHT-lərindən biri Rusiyanın "turist embarqosu"nun ölkəyə vuracağı mümkün ziyanı hesablayıb. Hesablamaya görə, Gürcüstana rusiyalı turistlər gəlməsə, ölkə 100 milyon dollar itirəcək".**

Bunu isə **iqtisadçı ekspert Rövşən Ağayev** deyib. Ekspert bildirib ki, Gürcüstanın turizm gəlirlərində bu məbləğin payı heç 5%-ə də çatmır: "Araşdırma müəllifləri hesab edir ki, bu embarqo perspektivdə Gürcüstanın xeyrinədir. Çünki bu məcburiyyət onları daha çox Qərb bazarlarına inteqrasiyaya vadar edəcək.

Belə təhlükələrə görə əmtəə və xidmət ixracının coğrafi baxımdan diversifikasiyası çox önəmlidir. Həm də milli təhlükəsizlik məsələsidir.

Doğrudur, Gürcüstana gələn rusiyalı turistlərin ümumi göstəricidə payı 20%-dən bir qədər çoxdur. Lakin xərclədikləri vəsait turizm gəlirlərinin 5%-i ətrafındadır".

**❑ Emil SALAMOĞLU "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 134 (7304) 25 iyun 2019


# Qulağını itirdi, polis tapıb qaytardı

Amerikanın Cənubi Karolina ştatının Byufert şəhər sakinінə dalğanın apardığı protez qulağını geri qaytarıblar. Bu barədə lenta.ru saytı ABC News-a istinadən xəbər verib. Merrit Yeager ailəsi ilə birgə Floridada istirahət edəndə öz bahalı qulağından məhrum olub. O, çimərlikdə gəzinti zamanı protez qulağını çıxarıb, amma onu gələn qəfil dalğa nəticəsində cibində gizlədə bilməyib. Dalğa geri çəkiləndə qulaq heç yerdə tapılmayıb. İtmiş qulağı hətta ailə üzvlərinin səyi nəticəsində də tapmaq mümkün olmayıb.



Yeager Floridadan gedəndən sonra bir nəfər dənizin sahilində süni qulaq fərq edib və onu polisə təhvil verib. Detektiv Brayan Holl ABC News-a açıqlamasında bildirib ki, ilk dəfədir ki, belə bir hadisə ilə rastlaşır. "Əvvəl anlaya bilmədim ki, bu, protezdir, yoxsa həqiqi qulaq. Daha sonra Facebook vasitəsilə elan versək də, qulağın sahibini tapmaq şansımızın olmadığını bilirdik".

İtən qulağın tapılması barədə informasiya Yeagerə də çatdı. Kişi polislə əlaqə saxladı və itən protez qulağın ona aid olduğunu sübut edə bildi. Bundan sonra protezi ona, Cənubi Karolinaya göndərdilər.



## Uşaq əlini bəzək əşyasına toxundurdu, cərəyan vurdu

Pekində bir uşaq əlini ticarət mərkəzində bir bəzək əşyasına toxundurub, həmin an onu güclü cərəyan vurub. Bu barədə lenta.ru saytı xəbər verib. İnsident 1 iyunda, "Beijing Parkview Green" Ticarət Mərkəzində baş verib. Videogörüntülərdə əks olunur ki, qız ağac kimi bəzədilmiş metal dirəyə yaxınlaşır və ona toxunur. Bu zaman onu cərəyan vurur və bir neçə dəfə silkələnərək daha sonra yerə yıxılır. Təəccüblənmiş anası ona yaxınlaşır və ağlayan uşağı özünə gətirməyə çalışır. Qızı dərhal xəstəxanaya çatdırıblar, hazırda onun səhhətinə heç bir təhlükə yoxdur.

"Əvvəlcə mən elə düşündüm ki, onlar dəlilik edirlər. Amma bir neçə saniyə sonra anladım ki, onu elektrik cərəyanı vurub" - bunu qızın anası Şi danışıb.

Bir neçə həftədən sonra ticarət mərkəzinin təmsilçiləri bəyanat yayaraq bildiriblər ki, indi onlar baş vermiş hadisənin səbəblərini araşdırırlar və buna görə məsuliyyəti öz üzərlərinə götürməyə hazırdırlar. Onların sözlərinə görə, bəzək əşyalarını may ayında quraşdırmadan öncə yoxlayıblar.

Zərərçəkmiş uşağın anası hazırda ticarət mərkəzinə qarşı iddia ərizəsi hazırlayır. O, 30 min yuan məbləğində kompensasiya alacağına ümid edir. Eyni zamanda bəzək əşyalarının yoxlanması ilə bağlı ona hesabat verilməsini tələb edir.

# Xərçəng xəstəsini yanlış əməliyyat etdilər

Avstraliyada həkimlər xəstənin bağırsağının yanlış hissəsini kəsib götürüblər. Bu barədə "Sydney Morning Herald" nəşri xəbər verib. Əməliyyat Yeni Cənubi Uels ştatında yerləşən Sidneyin yeni xəstəxanası olan Northern Beaches Hospitalda keçirilib. Adı açıqlanmayan xəstənin xərçəngdən əziyyət çəkdiyi bildirilir.



Ehtimal edilir ki, həkimlərin səhvinə və laboratoriyanın yanlış nəticələrinə görə belə bir durum yaranıb. İnsidentin araşdırılması ilə ştat rəhbərliyi məşğul olur.

Səhiyyə naziri Bred Hazzard xəstəxana işçilərini xəstənin özünə və ailəsinə lazımi dəstəyi verməyə çağırıb. O, xəstə ilə bağlı hər hansı şərh verməkdən imtina edib və hər kəsi onun hüquqlarına hörmət etməyə çağırıb. Hələ bilinmir ki, həkimlərin səhvi onun orqanizminə necə təsir göstərəcək.

İyunun əvvəlində xəbər verildi ki, həkimlər əməliyyat zamanı səhvən xəstənin döş qəfəsini yandırıblar. Yanmış yeri dərhal söndürüblər. Nəticədə nə xəstə, nə də həkimlər zərər çəkib.



## 2 yaşlı uşaq nənəsinin silahı ilə özünü öldürdü

Amerikanın Cənubi Karolina ştatındakı Qrinvill şəhərində iki yaşlı oğlan nənəsinin çantasında pistolet tapıb və təsadüfən özünü güllələyib. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Qrinvill polisinin məlumatına görə, 20 iyun, cümə axşamı günündə Keyden Con Staber nənəsinin və xalasının nəzarəti altında idi. Oyun zamanı uşaq heç kəsə fərq etdirmədən nənəsinin çantasından pistolet çıxardı və başına güllə atdı.

Polislər 13.35 radələrində edilən çağırışa dərhal reaksiya veriblər. Onlar həkimlər gələnə qədər zərərçəkmişə təxirəsalınmaz yardım göstərməyə çalışsalar da, yara ölümcül olub. Oğlan xəstəxanaya gedən yolda dünyasını dəyişib.

İstintaq təsdiqləyib ki, hadisə bədbəxt olay nəticəsində baş verib. May ayının sonunda xəbər verilmişdi ki, Avstraliyanın ştatı olan Kvinslenddə uşaq atasının silahı ilə oynayıb və bacısını yaralayıb. Qızı Kerns şəhər xəstəxanasına çatdırıblar və sağ qalmasına nail olublar.

# Bunları bilirsinizmi?

*Yer kürəsində yaşayan orqanizmlərin 70 faizini bakteriyalar təşkil edir.

*Siçovulu qıdıqladıqda ultrasəs diapazonunda qəhqəhə çəkir.

* Zürafənin bədənindəki xallar insan əlindəki barmaq izi kimi nadirdir...

* İnsan həyatı boyu təqribən 1000 dəfə dərisini dəyişir.

*87 mindən çox amerikalı orqan transplatasiyası növbəsindədir.

*İnsanın ağzında 40 min bakteriya olur.

* Yer kürəsində eyni gündə 9000000 adamın ad günü olur.

* Soyuducuya qoyulan 1 stəkan qaynar su 1 stəkan soyuq sudan tez donur.

* Bir insan dayanmadan saymağa başlasa onun 1 trilyona çatmağı üçün 31688 il yaşamağı lazımdır.

* İnsan bədənindəki bütün damarları uc-ucuna qoysalar 19200 km edər.

* Amerikanın Ohayo ştatında rəsmi qurumlardan icazə almadan siçan öldürmək qadağandır.

* Kosmosda cazibə qüvvəsi olmadığına görə kosmonavtlar ağlaya bilmir.

* Kofe insanın sərxoşluğunu aradan qaldırır.

* Kliniki ölüm baş verdikdə insanı 5 dəqiqə ərzində həyata qaytarmaq mümkün olur.

* Bir kilo limonun tərkibində olan şəkər bir kilo çiyələyin tərkibində olan şəkərdən daha çoxdur.

* Dəniz ulduzunun beyni olmur.

* İnsan bir il ərzində 1460 yuxu görür,yalnız onların azını yuxudan ayılarkən xatırlayır.

* Qarışqa suyun altında 2 həftə yaşaya bilir.

* Üzümü mikrodalğalı sobaya qoyduqda partlayır.

* Dünyada insan sayından çox toyuq yaşayır.

* Hər insanın barmaq izi kimi dilinin də izi özünəməxsus olur.

* Heç bir kağız 7 dəfədən çox iki hissəyə qatlanmır.

* Türkiyədə Mehmet adında 1.000.229 adam var.

* Səhərlər acqarına alma yemək insanın yuxusunu qaçırır.

* Bal xarab olmayan yeganə qida maddəsidir.

# 6 il işləmədi, sonda 200 min dollar maaşı oldu

Bir texnologiya şirkətində proqramçı olaraq çalışan işçi görməli olduğu bütün işləri avtomatik sistemə bağlayaraq 6 il boyunca heç çalışmadan ayda 8 min dollar maaş alıb. Amma bu hərəkətinə görə onu işdən qovublar. Buna səbəb isə onun sistemini kodlamağı unutmasıdır. Buna baxmayaraq, 6 illik uzun karyerası zamanı 200 min dollar yığıb və buna görə də maddi baxımdan hər hansı çətinliyi yoxdur. Evdə anasının hazırladığı axşam yeməyini yeyən, işlədiyi zamansa naharını balıq sendviçi və cola ilə yola verən gənc onun sayəsində qənaət edə bilib.

Amma adı açıqlanmayan gənc artıq həyatını bir sistemə qoymaq istədiyini deyib. Buna görə də bir neçə yerə işlə bağlı müraciət edib. Dediyinə görə, bu günə qədər unutduğu bir çox şeyləri təkrarlayacaq və bununla da motivasiyası geri qayıdacaq.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190